

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 mart 2025-ci il, şənbə
№ 048 (6876)
Qiymәti 60 qәpik


# Qarabağda olan münaqişə beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir



Bax səh. 2




# Tramp administrasiyası dövründə...

## ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq

Bax səh. 2

# Nazirlər Kabineti parlamentdə hesabat verdi

Bax səh. 3



Bax səh. 4

## Dünyanı birləşdirən Qlobal Bakı Forumu



Bax səh. 5

## Konstitusiya dəyişdirilməli, ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verilməlidir



Bax səh. 6

## BMT Baş katibindən islahatlar mesajı...

## Yeni dünya düzənində orta güclər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Ekvadorun xarici işlər naziri Mariya Fernando Espinazonın moderatorluğu ilə keçirilən sessiya “Yeni dünya düzənində orta güclər” mövzusuna həsr edilib.

Bolqarıstanın xarici işlər naziri Georq Georqiev bu gün dünyanın geosiyasi təlatümlərlə üzləşdiyini qeyd edərək, İkinci Dünya müharibəsindən sonra dünyada hərbi münaqişələrin indiki qədər çox olmadığını diqqətə çatdırıb. “Bu gün sürətli dəyişikliklər gedir. Sosial bərabərsizlik dərinləşir, siyasi müstəvidə ayrı-seçkilik baş verir”, - deyə o əlavə edib.

Xarici işlər naziri baş verən bu hadisələrin qlobal düzənə, sülhə və rifaha təhdid olduğunu bildirərək deyib: “Dünyada qlobal təhlükəsizlik və sabitlik bərqərar olmalıdır. Bolqarıstan həmişə çoxtərəfliliyi dəstəkləyir. Biz addımlarımızı BMT-nin...

Bax səh. 4

## Sülhə gedən yol...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Amerikanın Xarici Siyasəti üzrə Milli Komitənin prezidenti və baş icraçı direktoru Syuzan Eliotun moderatorluğu ilə keçirilən “Sülhə gedən yol” adlı panel iclasında əvvəlcə Ukrayna 3000 Fondunun sədri Katerina Yuşşenko Ukrayna-Rusiya müharibəsindən danışıb. Onun sözlərinə görə, bu müharibənin davam etməsi, sadəcə, bölgə üçün deyil, bütün dünya üçün təhlükədir. “Hadisələrə yalnız müəyyən prizmadan baxmaq olmaz. Biz burada, sadəcə, bir şəhərdən və ya dövlətdən danışmırıq, bütövlükdə demokratik dünyadan bəhs edirik”,- deyə o vurğulayıb.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç ABŞ Prezidenti Donald Trampın Ukrayna-Rusiya müharibəsinə yanaşma tərzindən danışıb. Onun sözlərinə görə, ABŞ Prezidentinin müharibəyə qarşı çıxması və sülh istəməsi üçün müəyyən...

Bax səh. 5

## Yeddilik Qrup Rusiyanı hədəfə almadı

Martın 12-13 - də Kanadanın Kvebek əyalətində Yeddilik Qrupunun (G7 - Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, ABŞ, Fransa və Yaponiya) xarici işlər nazirlərinin növbəti görüşü baş tutub. Görüşün sonunda XİN rəhbərlərinin birgə bəyanatı qəbul olunub. Bəyanatda Avropada təhlükəsizlik, Rusiya-Ukrayna müharibəsinin taleyi, Yaxın Şərq, Asiya-Sakit okean və Afrika regionunda mövcud vəziyyət və digər qlobal məsələlər ilə bağlı çağırışlar yer alıb. XİN rəhbərlərinin bəyanatında Ukraynaya hərbi-siyasi dəstəyin davam etdirilməsinin zəruriliyi vurğulansa da, Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi ilə bağlı fikirlər səsləndirilməyib. XİN rəhbərləri yalnız Moskvanı 30 günlük atəşkəsə razı olmağa çağırıb. Bəzi ekspertlərin fikrincə, bu, ümumilikdə, Qərbin Rusiyaya münasibət istiqamətlərini dəyişmək niyyətində olmasının göstəricisidir.

Qeyd edək ki, son zamanlar Rusiya-Ukrayna münaqişəsi üzrə mühüm proseslər baş verir - ABŞ ilə Rusiya və ABŞ ilə Ukrayna arasında təmasların intensivləşməsi, xüsusilə...

Bax səh. 7

# Tramp administrasiyası dövründə...

## ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq




## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumu zamanı "Euronews" televiziyasına müsahibə verib.*

*AZƏRTAC müsahibəni təqdim edib.*

**Müxbir: Cənab Prezident, Qlobal Bakı Forumu artıq 12-ci ildir ki keçirilir. Builki tədbirin nəticələri ilə bağlı gözləntiləriniz nədən ibarətdir?**

Prezident İlham Əliyev: Ümid edirəm ki, iştirakçılar ənənəvi olaraq qlobal gündəlikdə duran məsələlər barədə öz mövqelərini, fikirlərini və yanaşmalarını bölüşəcəklər, xüsusilə bu gün beynəlxalq arenada vəziyyətin kəskin şəkildə dəyişdiyi bir vaxtda. Bu Forumun iştirakçılarının adları onun potensialını əks etdirir. Çıxışımda qeyd etdiyim kimi, burada müxtəlif ölkələrdən 50-dən artıq fəaliyyətdə olan, sabiq dövlət və hökumət başçısı iştirak edir. Bu şəxslər böyük təcrübəyə və biliyə malikdirlər.

Artıq açılış sessiyasından da bəlli olur ki, burada müxtəlif fikirlərin kombinasiyası mövcuddur. Onlar heç də üst-üstə düşmür və bunun özü müsbət haldır. Əminəm ki, panellər çərçivəsində daha da qızğın müzakirələr aparılacaq. Beləliklə, bu Forumda hər zaman yeni ideyalar meydana gəlir və beynəlxalq məsələlərə yanaşmanın formalaşmasında Forumun vacib rolu var.

**- Builki Forumun mövzusu "Dünya Düzəninin Yenidən Düşünülməsi"dir. Sizcə bizim hamımızın qlobal səviyyədə üzləşdiyi əsas çağırışlar nədən ibarətdir?**

- Bu gün hər kəs tərəfindən bölüşülən fikir odur ki, hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesi baş verir. Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var.

İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir. Əlbəttə, biz hələ ki, qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq.

**-Biz dünyada çoxsaylı geosiyasi dəyişikliklərin şahidi oluruq. Əsasən, xüsusilə də bu regionda baş verən dəyişikliklərlə bağlı mövqeyiniz nədən ibarətdir?**

- Əlbəttə, ətrafımızda baş verən böhranlardan regionumuzun qorunması vacib məsələdir. Təəssüflər ki, onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub. Hazırda nisbətən sakit dövrdəyik və biz diqqətimizi buna yönəltməliyik. Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və Sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq.

Bəli, biz o zaman müstəqil dövlətlər deyildik, gələcəyimizi planlaşdırmaq iqtidarında deyildik və böyük mənada mərkəzi Sovet hakimiyyətindən asılı vəziyyətdə idik. Ancaq ən azından Cənubi Qafqaz respublikaları arasında fəal təmaslar var idi. Yəni, biz belə bir təcrübəyə malikik və sadəcə bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik.

**-Daha geniş regiona nəzər saldıqda burada Rusiya-Ukrayna məsələsini, Yaxın Şərqdə cərəyan edən hadisələri görürük. Qlobal kollektiv yanaşma olaraq biz bu hadisələrdən nəyi öyrənərək irəliləyə bilərik?**

- Bizim yanaşma ondan ibarətdir ki, biz qlobal nizamı olduqca düzgün qiymətləndirirdik. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq. Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik - hər bir ölkə anlamalıdır ki, o öz taleyinin sahibidir.

Onlar bunu nə qədər tez başa düşsələr bu, onlar üçün bir o qədər də yaxşı olar. Çünki əgər siz həmişə kiminsə yardımına




bel bağlasanız, birincisi, bu sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək həmin şəxs gəlib sizdən hesabat istəyəcək.

Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir.

**- Gələcəyə baxışınıza gəldikdə, bu qlobal sabitliyin yekunda haraya gedəcəyini görürsünüz? Sizcə, biz buna nail olacağıq?**

- Bu məsələdə mən o qədər də nikbin deyiləm. Mən realist olmağa üstünlük verirəm. Növbəti aylar və ya hətta illərdə sabitliyə nail olacağımızı düşünmürəm. Rusiya-Ukrayna müharibəsindən söhbət gedirsə, hətta müharibə dayansa belə, müharibənin yenidən başlamayacağına dair heç bir zəmanət yoxdur. Bir vaxtlar demək olar ki, otuz il ərzində bizdə - Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi. Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu müharibənin sona çatması demək deyildi. Sadəcə transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir.

Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Eyni yanaşmanı dünyanın bütün digər hissələrinə - Yaxın Şərqə və Afrikaya da şamil etmək olar. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır və əgər siz öz həllini tapmış münaqişə axtarsanız, görə bilərsiniz ki, sadəcə burada, Qarabağda olan münaqişə öz həllini tapıb. Bu, beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir. Bu həlli bütün dünya qəbul edir.

**- Hesab edirəm ki, belə hadisələr bu cür müzakirələrin başlanılmasına səbəb olur. Bu, o geosiyasi arenanın mühüm bir hissədir, elə deyilmi?**

- Əlbəttə. Çünki biz geosiyasi dəyişikliklərdən bəhs edəndə daha dəqiq danışmalıyıq. Bu, Vaşinqtonda baş verən hadisələrdir. Amerikanın yeni administrasiyasının siyasəti ilə bağlı nələr baş verir və bu, bir daha bütün dünyanın Ağ Evdə qəbul olunmuş qərarlardan necə asılı olduğunu nümayiş etdirir. Beləliklə, bu, qlobal geosiyasi dəyişikliyin mənbəyidir. O, yenicə başlayıb və biz bu geosiyasi dəyişikliyin ilk aylarını yaşayırıq.

Buna görə də belə çoxsaylı qonaqların iştirak etdiyi toplantılar hadisələri müvafiq şəkildə qiymətləndirmək, fikirləri, narahatlıqları və ya gözləntiləri bölüşmək üçün vacibidir. Mənim çıxışıma nəzər salsanız görərsiniz ki, mən baş verənlərlə bağlı çox nikbin əhvali-ruhiyyədəyəm. Çıxışımda dediyim kimi, biz ABŞ-ın əvvəlki administrasiyası və Azərbaycan arasında münasibətlərin pisləşməsindən məyusluq hissi keçirmişdik. Onların mövqeyi bizim milli maraqlarımıza ədalətsiz yanaşmadan ibarət idi. Buna görə biz Tramp administrasiyası dövründə ABŞ ilə münasibətlərimizin və güclü tərəfdaşlığımızın yenidən qurulmasına çox nikbin baxırıq.

Lakin qonşu zalda bəzi insanlar var ki, onlar nikbin olmaq əvəzinə daha çox məyusdurlar. Bu da təbiidir, çünki hər bir ölkənin öz maraqları var. Hər bir siyasətçinin öz baxışları var. Mən ümid edirəm ki, burada, bu Forumda ideyaların toqquşması baş verəcək və bu da forumu uğurlu edəcək.

**- Siz artıq prezident Trampla danışmısınız və o, Sizin fikirlərinizi bölüşürmü?**

- Mən, sadəcə, onunla onu seçkilərdə qələbə münasibətilə təbrik etmək üçün danışmışam və bu da bizim aramızda baş vermiş yeganə söhbətdir.

**- Hələ ki. Cənab Prezident Sizinlə danışmaq hər zaman çox xoşdur.**

- Çox sağ olun. Sizə Bakıda xoş vaxt keçirməyi arzulayıram.

**-Sağ olun. Sizi görmək xoş idi.**

- Sağ olun.

## Bakı Qlobal Forumu dünyada bir nömrəli siyasi forumdur



"Mən Qlobal Bakı Forumunda bir neçə dəfə iştirak etmişəm. Bu tədbir həmişə çox intensiv şəkildə keçir. Burada çoxlu ikitərəfli görüşlər, panel iclasları keçirilir. Hesab edirəm ki, Qlobal Bakı Forumu dünyada bir nömrəli siyasi forumdur".

Bu barədə AZƏRTAC-a müsahibəsində XII Bakı Qlobal Forumun iştirakçısı, İslam Dünyası Elmlər Akademiyasının sabiq baş direktoru Monif Zoubi deyib.

"Mən demək olar ki, bütün sessiyaları yaxından izləyirəm. Həmçinin rəsmilərlə, tədqiqatçılarla, o cümlədən azərbaycanlı rəsmilərlə görüşlər keçirirəm. Forum hamımızı maraqlandıran və narahat edən mühüm mövzuları ehtiva edir. Biz hər zaman bu cür tədbirlərdə iştitarak etmək niyyətindəyik. Çünki dünyanın hər yerində - istər Avropada, istərsə də Yaxın Şərqdə çoxlu sayda həlli tələb olunan münaqişələr mövcuddur. Bu cür tədbirlər isə siyasətçilərə qeyri-rəsmi şəkildə həll yolları tapmağa imkan yaradır", - deyə Monif Zoubi vurğulayıb.

## XII Qlobal Bakı Forumu Moldova mətbuatında...


В Азербайджане проходит XII Глобальный Бакинский форум

13 мар. 14:00 В Мире 644 0

**В Баку под патронатом Президента Азербайджана Ильхама Алиева проходит XII Глобальный Бакинский форум на тему «Переосмысление миропорядка: Превращение вызовов в возможности», организованный Международным центром Низами Гянджеви.**

Moldovanın "noi.md" xəbər portalı "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun rəsmi açılış mərasiminə dair məqalələr dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Forumda söylədiyi fikirlərə geniş yer verilib. Prezidentin nitqində Azərbaycanın beynəlxalq mövqelərinin konturları, üzləşdiyi vəzifələr və əldə etdiyi uğurlar göstərilib. Azərbaycan dövlətinin başçısı Bakı Forumunun aktual qlobal problemlərin müzakirəsi üçün aparıcı platformalardan birinə çevrildiyini vurğulayıb. Bu kontekstdə Prezident İlham Əliyev xatırladıb ki, ötən il Bakıda keçirilən COP29 iqlim konfransı ekspertlər tərəfindən "Bakı sıçrayışı" adlandırılıb və bu, Azərbaycanın qlobal siyasətdə artan rolundan xəbər verir.

Məqalədə, həmçinin Prezident İlham Əliyevin Azərbaycanın yaşadığı işğal illərini və Ermənistan tərəfinin verdiyi dağıntıları haqqında fikirləri də yer alıb. Dövlətimizin başçısının sitatına istinadla Azərbaycanın güc və qətiyyət nümayiş etdirərək öz ərazi bütövlüyünü bərpa etdiyini vurğulanıb. Azərbaycanın öz hərbi potensialını fəal şəkildə inkişaf etdirdiyini və son 20 ildə işğal olunmuş əraziləri azad edən qüdrətli ordu yaratdığı qeyd edilib.

Eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycanın zərərinə erməni diasporunu dəstəkləyən bəzi Qərb siyasətçilərini tənqid edən fikirləri də məqalədə xüsusi yer tutub. Azərbaycan Prezidentinə istinadla vurğulanıb ki, Robert Menendez, Adam Şif, Frank Pallon və Nensi Pelosin erməni diasporunun maliyyə resurslarından Azərbaycana hücum və nüfuzdan salmaq üçün istifadə ediblər. Həmçinin ABŞ-ın keçmiş dövlət katibi Antoni Blinken onilliklər ərzində əməkdaşlığa, o cümlədən Bakının İraq və Əfqanıstandakı hərbi missiyalarda iştirakına baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini faktiki olaraq pozub. Azərbaycan Prezidenti Avropa İttifaqını da tənqid edərək, Brüsseli Ermənistanın "yeni böyük qardaşı" adlandırıb. Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan-Azərbaycan sərhədində Avropanın monitorinq missiyası faktiki olaraq onun ölkəsinə qarşı kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Dövlətimizin başçısı Ermənistana verilən silahların Azərbaycana qarşı yönələ biləcəyindən də narahat olduğunu bildirib. Prezident İlham Əliyev qeyd edib ki, keçmişdə baş vermiş faciəli hadisələrə baxmayaraq, ölkə gələcəyə baxır və Cənubi Qafqazda davamlı sülhə nail olmağa çalışır.

# Ölkənin strateji valyuta ehtiyatları artıb

## Nazirlər Kabineti parlamentdə hesabat verdi

### ÜDM artıb, sosial müdafiə gücləndirilib, sosial ödənişlərin artırılması ilə bağlı mühüm qərarlar qəbul olunub

Martın 14-də Milli Məclisin növbəti iclası keçirilib. İclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı dinlənilib.

Əvvəlcə spiker Sahibə Qafarova martın 10-da və 11-də başçılıq etdiyi nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri barədə məlumat verib. Onun sözlərinə görə, səfər zamanı keçirilən görüşlərdə dost ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi aparılıb, möhkəm tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə edilib. Yüksək səviyyəli münasibətlərin parlamentlər müstəvisində də uğurla davam etdirildiyi bildirilib.



## Sahibə Qafarova: Azərbaycan davamlı inkişaf yolunda bundan sonra da inamla addımlayacaq

Daha sonra S.Qafarova Nazirlər Kabinetinin hesabatı barədə fikirlərini bildirib. Onun sözlərinə görə, qanunvericiliyə uyğun olaraq Nazirlər Kabineti Milli Məclisin yaz sessiyasının beşinci iclasında ötən ildəki fəaliyyəti barədə hesabat verir. Spiker qeyd edib ki, müstəqillik dövründə ilk dəfə olaraq 2024-cü ildə ölkəmizin bütün suveren ərazisində keçirilən prezident və parlament seçkiləri Azərbaycanın müstəqil inkişaf yolunda inamla irəlilədiyini bir daha təsdiq edib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası xalqımıza və dövlətimizə yeni böyük uğurlar gətirib. Dövlət başçısı tərəfindən ölkəmizin inkişafı ilə bağlı strateji hədəflərin müəyyən edilməsi hökumətin fəaliyyətində məqsədyönlüyü və səmərəliyi yüksəldib. Ölkənin iqtisadi dayanıqlığının qorunmasına, modernləşməyə və sosial rifaha xidmət edən düşünülmüş tədbirlər həyata keçirilib. 2024-cü il isə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdi. Noyabr ayında Bakıda keçirilən COP29 Konfransı Azərbaycanı iqlim dəyişmələri ilə bağlı beynəlxalq dialoqun mərkəzinə çevirdi".

S.Qafarova deyib ki, 2024-cü ildə ümumi daxili məhsulun artımı həm neft, həm də qeyri neft-qaz sahələri hesabına əldə edilib. İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə də nəqliyyat-tranzit potensialının reallaşdırılması, kənd təsərrüfatının, turizmin, rəqəmsal və "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər görülməkdədir. Hökumətin bu istiqamətdə gördüyü işlər iqtisadiyyatın dayanıqlı olmasına xidmət edir. Böyük Qayıdış, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2024-cü ildə büdcədən 5,4 milyard manata yaxın vəsait ayrılıb, il ərzində 5500-ə yaxın insanın doğma yurdlarına köçürülməsi təmin edilib. Onun sözlərinə görə, ötən il dövlət büdcəsinin gəlirləri proqnozdan 5,5 faiz və ya 774 milyon manat çox icra olunub.



MM sədri əminliyini ifadə edib ki, Azərbaycan dinamik və davamlı inkişaf yolunda bundan sonra da inamla addımlayacaq: "Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır. Ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilib".

## Əli Əsədov: Hesabat ilində ÜDM artımı 4,1 faiz təşkil edib

Sonra Baş nazir Əli Əsədov çıxış edərək illik hesabatı təqdim edib. O bildirib ki, hesabat ilində ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. 2024-cü ildə ÜDM istehsalı neft-qaz sektorunda 0,3 faiz, qeyri-neft-qaz sektorunda isə 6,2 faiz artıb. Qeyri-neft-qaz sənayesi 7,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM isə 3,6 faiz artaraq 12,4 min manat təşkil edib. 2024-cü ildə xarici ticarət dövriyyəmiz təxminən 47,4 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 5,3 milyard dollar olub. Qeyri-neft ixracı 3,3 milyard dolları üstələyib.

## Hazırda strateji valyuta ehtiyatları 73 milyard dollara çatıb

Baş nazirin sözlərinə görə, 2024-cü ildə ölkənin strateji valyuta ehtiyatları 2,5 milyard dollar (və ya 3,7 faiz) artaraq 71 milyard dollar (hazırda 73 milyard dollar) təşkil edib və xarici dövlət borcunu 14 dəfə üstələyir: "İlin sonuna xarici dövlət borcunun məbləği 20,6 faiz azalaraq 5,1 milyard dollar olub və ÜDM-in cəmi 6,9 faizini təşkil edib. Hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri, valyuta bazarında tarazlığın qorunması, məzənnə sabitliyi, makrofiskal və monetar siyasətlə bağlı qərarlar inflyasiyaya azaldıcı təsir edib. Hesabat ilində illik inflyasiya hədəf diapazonu daxilində olub. Belə ki, 2024-cü ilin dekabr ayında 12 aylıq inflyasiya 4,9 faiz, orta illik inflyasiya isə 2,2 faiz təşkil edib".

Diqqətə çatdırılıb ki, 2024-cü ildə dövlət büdcəsinin gəlirləri təxminən 37,2 milyard manat (102 faiz icra), xərcləri isə 37,7 milyard manat (95 faiz icra) təşkil edib. Beləliklə, dayanıqlı iqtisadi artım üçün makroiqtisadi - maliyyə sabitliyi və inflyasiyanın aşağı birrəqəmli səviyyəsi təmin edilib. Maliyyə vəziyyətimizin yaxşılaşması nəticəsində qeyri-neft sektorunda iqtisadi fəallığın təmin edilməsi, sahibkarlığın inkişafı və yerli istehsalın stimullaşdırılması, vergi-gömrük güzəştləri, biznes-investisiya mühitinin yaxşılaşdırılması, habelə dövlətlə özəl sektor arasında birgə maliyyələşdirmə istiqamətində kompleks işlər davam etdirilib. İnvestisiya təşviqi ilə bağlı yeni mexanizmlər əsasən regionların inkişafına və investisiya potensialının artırılmasına yönəldilib. 2024-cü ildə sənaye zonalarında 3,3 milyard manat dəyərində məhsul istehsal olunub, ondan 1,1 milyard manat həcmində məhsul ixracı edilib.

Sosial məsələlərə gəlincə, hesabatda qeyd edilib ki, 2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, xüsusən də aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin və real gəlirlərinin yüksəldilməsi məqsədilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub. 2024-cü ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39 faizi və ya 14,6 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib. 2024-cü ildə orta pensiya məbləği 12 faiz, yaşa görə pensiya 11,3 faiz artıb, yaşayış minimumu ölkə üzrə 270 manat müəyyən edilib (9,8 faiz artım). Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 475 manat olub. Bundan əlavə, hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılıb. Hökumət tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir.

## Bu il azad olunmuş ərazilərin bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub

Baş nazir qeyd edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə bütün sahələrdə bərpa-quruculuq işləri uğurla davam edir: "Hesabat ilinin sonunadək işğaldan azad edilmiş ərazilərdə 10.2 mindən çox keçmiş məcburi köçkün (2615 ailə) artıq evlərlə təmin edilib və orada yaşayırlar. Ümumilikdə isə 30 min insan bu ərazilərdə yaşamaqla müxtəlif sahələrdə çalışırlar. İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, yaşayış və həyat üçün vacib olan yeni infrastrukturun qurulması prioritet təşkil edir. Ümumilikdə 2021-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 milyard manat vəsait ayrılıb, təkcə 2024-cü ildə bu rəqəm 5 milyard 347 milyon manat olub. 2025-ci ildə 4 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub".

## 180 min hektara yaxın ərazi minalardan təmizlənib

Diqqətə çatdırılıb ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, dövlət sərhədlərinin mühafizəsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbir və layihələrin icrası 2024-cü ildə də prioritet xərclər sırasında birinci olub. Bu məqsədlə 2024-cü ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 6 milyard 562 milyon manat vəsait ayrılıb. Bu, 2023-cü illə müqayisədə 12 faiz çox olub.

Ötən il, həmçinin işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri aparıləb. Belə ki, bu dövrdə 62 min hektar, ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə 180 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. 2025-ci ildə isə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

Əli Əsədov onu da bildirib ki, ötən il ümumilikdə deputatlar tərəfindən müxtəlif məsələlər üzrə 151 müraciət daxil olub. Bu müraciətlərin 34-ü humanitar, 31-i iqtisadi, 23-ü sosial, 22-i nəqliyyat və yol infrastrukturu, 15-i tikinti, 14-ü kommunal, 5-i qanunvericilik, 4-ü təhlükəsizlik, 3-ü isə digər sahələrə aiddir. Bunlardan 57 müraciət üzrə qaldırılan məsələlər tam, 48 müraciət üzrə isə qismən icra edilib və yaxın zamanlarda icranın başa çatdırılması nəzərdə tutulub. Digər 46 məsələnin icrası istiqamətində isə işlər hazırda davam etdirilir.

Baş nazir əmin edib ki, bundan sonra da bu müsbət inkişaf dinamikasının saxlanılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə Hökumət böyük əzmlə çalışacaq.

Müzakirələr zamanı Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Musa Qasımlı və Ziyafət Əsgərov, komitə sədrləri Azər Əmiraslanov, Tahir Rzayev, Zahid Oruc, deputatlar Elman Nəsirov, Bəhruz Məhərrəmov, Aydın Mirzəzadə və başqaları çıxış edərək hesabata münasibət bildiriblər.

Müzakirələrin sonunda Nazirlər Kabinetinin illik hesabatı qəbul olunub.

*Nardar BAYRAMLI*

## Qırğızıstanın sabiq Baş naziri: Azərbaycan məqsədyönlü yanaşma sayəsində öz hədəflərinə çatacaq

"Azərbaycanın münaqişədən sonra həyata keçirdiyi yenidənqurma işləri çox müfəssəldir. Qarabağda münaqişədən sonrakı inkişaf dövrü üçün hazırlanan hərtərəfli plan məni valeh etdi. Dünyanın başqa yerlərində belə əhatəli proqram görməmişəm".



AZƏRTAC xəbər verir ki, bu sözləri XII Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Sülh-münaqişə sonrası yenidənqurma və regional sabitliyin yenidən bərpası" adlı panel iclasında Qırğızıstanın sabiq Baş naziri Comart Otorbayev deyib.

O bildirib ki, Azərbaycan məqsədyönlü yanaşma sayəsində öz hədəflərinə çatacaq və bütün dünyaya həqiqətən də münaqişədən sonrakı bərpa işləri üçün nümunə olacaq.

## Volkan Bozkır: Azərbaycanın Qarabağda apardığı tikinti-quruculuq işləri nümunədir

"Türkiyənin şəhərlərin yenidən qurulması və bərpası ilə bağlı təcrübəsi müharibə səbəbindən deyil. Bizim müxtəlif şəhərlərimizdə 3 zəlzələ baş verib, zəlzələ səbəbindən 50 minə yaxın insan həyatını itirib. Ancaq bir çox qonşu ölkədə bu problem müharibə səbəbindən yaranır".

AZƏRTAC xəbər verir ki, bunu XII Qlobal Bakı Forumunun "Sülh-münaqişə sonrası yenidənqurma və regional sabitliyin yenidən bərpası" mövzulu panelində Türkiyə Respublikasının Avropa İttifaqı işləri üzrə sabiq naziri Volkan Bozkır deyib.

O qeyd edib ki, yenidənqurma proseslərində ilk olaraq maliyyə nəzərə alınmalıdır: "Təəssüf ki, yenidənqurmada köməyə ehtiyacı olan dövlətlərə verilən maddi yardımın dörddəbiri vasitəçi təşkilatlara gedir".

Volkan Bozkır bildirib ki, Türkiyənin yenidənqurma və bərpa təcrübəsi Suriya üçün nümunə olmalıdır. Suriyada qarşıdurmalar səbəbindən infrastruktur olduqca ağır vəziyyətdədir. Ancaq tarix boyu Suriya Yaxın Şərqin təməl dövlətlərindən biri olub. Hazırda Suriya üçün humanitar yardıma ehtiyac var.



"Digər bir nümunə Azərbaycanın Qarabağda apardığı tikinti-quruculuq işləridir. Təəssüf ki, 30 illik işğal dövründə Qarabağ kimi tarixi məkanın mədəni irsinin böyük qismi məhv edilib. Hazırda bərpa prosesi gedir, bunun bağlı Azərbaycanı təbrik etmək istəyirəm. Şəhərlər bərpa olunarkən tarixi abidələr qorunur. Əhalinin Qarabağa qayıtması üçün məktəblər, xəstəxanalar, iş yerləri yaradılır. Azərbaycanın bunun da öhdəsindən gələcəyinə inamım tamdır", - deyə o əlavə edib.

# Dünyanı birləşdirən Qlobal Bakı Forumu

Azərbaycanda müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. Ötən ilin noyabr ayında uğurla baş tutan COP29 iqlim konfansından sonra bu günlərdə ölkəmiz daha bir mühüm tədbirə ev sahibliyi edir. Belə ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 13-15-də Azərbaycanın paytaxtında XII Qlobal Bakı Forumu keçirilir. Builki Forumun mövzusu son zamanlar xüsusilə aktual olan məsələləri əhatə edir: "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi".




**Aparıcı beynəlxalq platformalardan biri**

Çox doğru olaraq ənənəvi qaydada keçirilən Qlobal Bakı Forumu dünyanı birləşdirən səmərəli platforma kimi dəyərləndirlir və onun adı Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədə çəkilir. Bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevin Sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Budəfəki Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, Nobel mükafatı laureatları, alimlər və ekspertlər iştirak edib. "Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir". Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib. Forumun önəminə diqqət çəkən dövlətimizin başçısı vurğulayıb: "Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib".



Burada qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkə qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilib. Forumun Bakıda keçirilməsi də Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir. Biz qürur duyuruq ki, güclü potensiala malik olan, daim müstəqillik, suverenlik, ədalət, beynəlxalq hüquq mövqeyindən çıxış edən Azərbaycana və onun Liderinə dünyada böyük inam bəslənilir.

## Geniş əhatə dairəsinə malik gündəlik

Xüsusi vurğulamaq lazımdır ki, 2013-cü ildən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr və bir sıra digər qlobal problemlər geniş müzakirə edilib, onların həlli yollarının tapılması istiqamətində təhlillər aparılıb.

Müzakirələrə çıxarılan məsələlərin aktuallığı baxımından budəfəki forum da istisna deyil. XII Qlobal Bakı Forumunda qlobal aktual problemlər, çoxtərəfli diplomatiya, çoxqütblü dünya nizamı, BMT-nin gələcək paktı, postmünaqişə dövründə bərpaquruculuq işləri və orta güclərin yeni dünya düzənində rolu kimi vacib mövzular müzakirə olunub. Bu mühüm beynəlxalq tədbir sülh, təhlükəsizlik və dayanıqlı inkişaf mövzularında qlobal dialoqa və əməkdaşlığa töhfə verməyi hədəfləyir. Müxtəlif regionlardan iştirakçıların qatılması forumun genişmiqyaslı təsirini və beynəlxalq arenada əhəmiyyətini, ölkəmizin beynəlxalq dialoqa verdiyi töhfəni və multilateralizmə sadiqliyini bir daha nümayiş etdirir. Bu, həm də Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş, sülh və sabitlik naminə təşəbbüslərə ev sahibliyi edən bir ölkə kimi rolunu gücləndirəcək.

## Azərbaycana və onun Liderinə olan böyük inam

Bu gün Azərbaycan regionda mühüm söz sahibi və sabitləşdirici qüvvə kimi çıxış edərək beynəlxalq əməkdaşlığın güclənməsinə töhfə verir. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi Qələbə və ərazi bütövlüyünün, suverenliyin bərpası ölkəmizə olan marağı daha da artırıb. Strateji coğrafi mövqeyi sayəsində Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat və logistika qovşağına çevrilib. Ölkəmiz qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında regionda sabitliyin və inkişafın təmin olunmasına çalışır. Prezident İlham Əliyevin qətiyyətli liderliyi, etibarlı siyasəti və yaradılan əlverişli biznes mühiti Azərbaycanın beynəlxalq nüfuzunun və tərəfdaş ölkələrlə əməkdaşlıq imkanlarının durmadan genişlənməsini təmin edir. Təbii ki, belə bir şəraitdə ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan Qlobal Bakı forumları xarici qonaqlar üçün Azərbaycanla dialoqu inkişaf etdirmək, yeni əməkdaşlıq əlaqələri qurmaq baxımından mühüm imkandır.

## Unikal reallıq

Məlumdur ki, hazırda dünyada multikulturalizmə münasibət birmənalı deyil. Təəssüf doğuran haldır ki, bir sıra hallarda milli-dini-irqi dözümsüzlük önə keçir. Dünyadakı belə kədərli mənzərə fonunda Azərbaycan tarixi ənənələrinə və bugünkü unikal reallıqlarına istinad etməklə bütün dünyaya fərqli nümunə göstərir. Təkcə Qlobal Bakı Forumu deyil, elə Azərbaycanın özü də müxtəlif dinlər, mədəniyyətlər arasında körpü rolunu oynayır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin sözügedən istiqamətdə fəaliyyəti məhz bundan qaynaqlanır. Bu məqamda dövlətimizin başçısının bu fikirləri diqqət çəkir: "Əsrlər boyu Azərbaycan sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Bizim coğrafi



yerləşməmiz və xalqımızın tarixi irsi Azərbaycanda xüsusi abhava yaratmışdır. Azərbaycan Avropa və Asiya arasında təbii coğrafi körpüdür. Əminəm ki, Azərbaycan hazırda Avropa ilə müsəlman dünyası arasında mədəni və siyasi körpü rolunu oynayır".

Şübhə yoxdur ki, XII Qlobal Bakı Forumu da əvvəlki illərdə olduğu kimi, qlobal çağırışların həlli üçün geniş mövzu spektri və dərin müzakirələri ilə növbəti dəfə beynəlxalq birliyin diqqətini özünə cəlb etdi. Açılış mərasimində səsləndirlən fikirlər, panellərdə aparılan diskussiyalar beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, ortaq həll yollarının müəyyənləşdirilməsinə və sülhün təşviqinə hədəflənib. Bakı bir daha strateji dialoq mərkəzi kimi çıxış edərək dünyanın diqqətini mühüm qlobal problemlərə yönəltdi. Azərbaycanın sivilizasiyalararası dialoqu dəstəkləməsi, beynəlxalq arenada konstruktiv rolu və qlobal məsələlərin həllində fəal iştirakı bu tədbirin uğurlu nəticələr verəcəyinə böyük əminlik yaradır.

***Mübariz ABDULLAYEV***

# Yeni dünya düzənində orta güclər

## Azərbaycan fəal diplomatik təşəbbüslər nümayiş etdirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Ekvadorun xarici işlər naziri Mariya Fernando Espinazonın moderatorluğu ilə keçirilən sessiya "Yeni dünya düzənində orta güclər" mövzusuna həsr edilib.

Bolqarıstanın xarici işlər naziri Georq Georqiev bu gün dünyanın geosiyasi təlatümlərlə üzləşdiyini qeyd edərək, İkinci Dünya müharibəsindən sonra dünyada hərbi münaqişələrin indiki qədər çox olmadığını diqqətə çatdırıb. "Bu gün sürətli dəyişikliklər gedir. Sosial bərabərsizlik dərinləşir, siyasi müstəvidə ayrı-seçkilik baş verir", - deyə o əlavə edib.

Xarici işlər naziri baş verən bu hadisələrin qlobal düzənə, sülhə və rifaha təhdid olduğunu bildirərək deyib: "Dünyada qlobal təhlükəsizlik və sabitlik bərqərar olmalıdır. Bolqarıstan həmişə çoxtərəfliliyi dəstəkləyir. Biz addımlarımızı BMT-nin Nizamnaməsi əsasında atırıq. Hazırda bütün dünyada dəyişikliklər gedir. Bolqarıstan hər zaman ümumi dəyərlərə və prinsiplərə dəstək olub. Biz, həmçinin Ukraynada dayanıqlı sülhü bərqərar etməliyik".

Onun sözlərinə görə, Avropa İttifaqı enerji şaxələndirilməsində mühüm rol oynayır. "Bolqarıstan öz dayanıqlı səylərini bundan sonra da göstərəcək. Elə etməliyik ki, enerji təchizatımız dayanıqlı olsun, həmçinin iqlimə də zərər vurmasın", - deyə nazir vurğulayıb.

Avstriyanın sabiq xarici işlər naziri Benita Ferrero-Valdner ortamiqyaslı ölkələrin koalisiyasının tez bir zamanda qurulmasının vacibliyini qeyd edib. Onun sözlərinə görə, əgər koalisiya qurulsa, bu, konkret bir dövlətə təsir göstərmə gücünə malik ola bilər. Həmçinin bunun vasitəsilə regional tərəfdaşlıq da yarana bilər.




"Mən xarici işlər naziri olan dövrdə də bunu demişdim: ortaq sülh, sabitlik kimi əsas təməli təşviq edən siyasəti dəstəkləməliyik və ortamiqyaslı ölkələr bu sahədə böyük dəstək vasitəçisi ola bilər", - deyə Benita Ferrero-Valdner diqqətə çatdırıb.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov dəyişən dünyada ənənəvi dəyərlərin elə biz danışdığımız zamanda da pozulduğunu, məhv edildiyini bildirərək, BMT-nin Nizamnaməsinə uyğun gəlməyən halların göründüyünü billdirib. "Azərbaycan uzun illər Ermənistanın hərbi təcavüzündən əziyyət çəkib. Biz Türk Dövlətləri Təşkilatını qurmuşuq və bu təşkilat hər il daha da güclənir. Qoşulmama Hərəkatı aparıcı platforma kimi çıxış edir. Bu hərəkat BMT-dən sonra ikinci böyük təşkilat hesab olunur. Dünyada isə münaqişələr səngimir. Belə bir vaxtda Azərbaycan fəal diplomatik təşəbbüslər nümayiş etdirir", - deyə o diqqətə çatdırıb.

Nazir müavini ölkələrin müstəqil qərar qəbul etmək iqtidarında olmasını vacib amil hesab edib. Bildirib ki, ölkələr milli maraqlarını üstün tutmalıdır. "Həmçinin iqtisadi müstəqillik olmadan özünüzü müdafiə edə bilməzsiniz. Əgər dünyada öz yerinizi müəyyənləşdirmək istəyirsinizsə, birmənalı olaraq güclü iqtisadiyyatınız olmalıdır", - deyə E.Məmmədov qeyd edib.

İslandiyanın sabiq Prezidenti Olafur Raqner Qrimsson dünyanın yüksək templə dəyişdiyini vurğulayaraq, prezidentliyinin sonuncu dövründə Asiyanın böyük bir gücə çevrildiyinin şahidi olduğunu bildirərək deyib: "Biz görürük ki, Çin orta və kiçikmiqyaslı ölkələrlə münasibət qurur. Bu isə düzgün taktikadır".

Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç regional güc haqqında danışaraq bir çox məsələdə əsas rol oynamaq üçün böyük güclərin orta güclərlə ümumi baxışlarının olmasının vacibliyini vurğulayıb. O qeyd edib: "Burada, həmçinin etimad da böyük rol oynayır. Biz bir yenilik gətirmək istəyirik və şansımız da var. Lakin bu, istədiyimiz məcrada getməyə də bilər. Təkliflərimiz orta güclər, məsələn, Avropa İttifaqı və Çin tərəfindən dəstəklənə bilər".

Bolqarıstanın sabiq prezidenti Petar Stoyanov İkinci Dünya müharibəsindən sonra Amerikanın yeganə supergüc kimi özünü göstərdiyini qeyd edib. Sabiq Prezident, həmçinin Trampın tariflərlə bağlı qərarına orta gücdə olan ölkələrin necə münasibət göstərəcəyinin vacibliyinə də toxunub.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin iqlim dəyişmələrinin, miqrasiya məsələlərinin, kibertəhlükəsizliyin, süni zəkanın bu gün dünyada qarşılaşdığımız əsas problemlərdən biri olduğunu qeyd edib. O diqqətə çatdırıb: "Bizə yenə də sülh lazımdır. Azərbaycanla Ermənistan arasında dayanıqlı sülh hələ də əldə olunmayıb. Kosovo yenə də Serbiya ilə problemli vəziyyətdədir. Orta Şərq problemli vəziyyətdədir. Orta Şərq gələcəyimizi formalaşdıracaq. Bunun üçün kollektiv səy və əməkdaşlıq lazımdır. Hazırda isə bunun əksi baş verir. Trampın siyasəti çoxtərəfliliyə xidmət etmir. Cari problemlərin həllinə gəldikdə onların əllərində böyük imkanlar var. Türkiyə orta ölçülü və regional bir gücdür. Türkiyə qlobal rifahın əldə olunmasında mühüm rol oynayır.

Müasir tarixdə dəyişikliklərin baş verdiyini deyən Maltanın sabiq Baş naziri Cozef Muskat kiçik güclərin azadlığı təşviq etdiyini vurğulayaraq bildirib: "Bu, seysmik bir dəyişiklikdir və ən çox qloballaşma ilə bağlıdır".

Latviyanın sabiq müdafiə naziri Artis Pabriks isə diqqətə çatdırıb ki, kiçik və orta ölkələrin arzusu həmişə ədalətlə bağlı olur. Onlar ədaləti ya beynəlxalq təşkilatlarda, ya da müdaxilə edəcək tərəfdaşlarda axtarırlar və konsepsiya, nəzəriyyədən asılı olmayaraq, istədiklərini edirlər.

Monqolustanın sabiq Prezidenti Nambaryn Enkhbayar öz ölkəsi barədə danışaraq, kiçik dövlətləri açıq və fəal olmağa çağırıb. "Bizə müttəfiqlər lazımdır. Güclü ölkələr tək də bir hər şeyin öhdəsindən gələ bilərlər. Lakin kiçik ölkələr ləng davrana bilməzlər. Bu, onları ölümə sürükləyə bilər. Kiçik ölkələrin qərar vermək vaxtı gəlib çatıb. Biz islahatların önündə olmalıyıq", - deyə sabiq prezident əlavə edib. Panel iclası müzakirələrlə davam edib.

# Sülhyaratma prosesində yeni mərhələ

## Konstitusiya dəyişdirilməli, ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verilməlidir

Təxminən otuz il ərzində Ermənistanın işğalçılıq siyasətinə görə sabitliyi pozulan, təhlükəsizliyə təhdidlərlə üzüzə qalan Cənubi Qafqaz coğrafiyası hazırda heç vaxt olmadığı qədər sülhə yaxındır. Azərbaycanın 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı qələbələr sayəsində formalaşdırdığı yeni reallıqlar regionda davamlı sülh və əmin-amanlıq üçün fundamental baza qismində çıxış edir. Regionun, xalqların, dövlətlərin gələcəyi naminə bu fürsətdən maksimum dərəcədə istifadə olunmalıdır.

### Sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb

Artıq postmüharibə dövründə başlayan sülhyaratma prosesində yeni mərhələyə keçid edildiyi fikrini ifadə edə bilərik. Belə ki, bu günlərdə sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Xəbər verildiyi kimi, sülh sazişi layihəsi bütövlükdə, 17 bənddən ibarətdir. Aparılan ikitərəfli dialoqun nəticəsi olaraq 15 bənd üzrə razılaşma əldə olunsa da, son iki bənd rəsmi İrəvanın manipulyativ mövqe sərgiləməsi səbəbindən uzun müddət idi ki, açıq qalırdı. Nəhayət, bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə öz mövqeyini ölkəmizə çatdırıb. Ona görə də mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd etmək mümkündür. Vurğulamaq yerinə düşər ki, indiyədək razılaşdırılmamış bəndlər bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaq və başqa ölkələrin nümayəndələrini Azərbaycan-Ermənistan sərhədində yerləşdirməməklə bağlı idi.

Sülhyaratma prosesində əldə olunan son razılaşma Azərbaycanın ardıcıl şəkildə prinsipial siyasi iradə ortaya qoymasının nəticəsidir. Məlumdur ki, ölkəmiz qalib tərəf olmasına rəğmən, müharibə başa çatandan az sonra sülh təşəbbüsündən çıxış edib. Azərbaycanın qətiyyətli mövqeyi bellədir ki, nəhayət, müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq lazımdır. Region onillikləri əhatə edən münaqişədən sonra rahatlıq tapmalı, nəfəs almalı və ölkələrin potensialı əməkdaşlığa, inkişafa istiqamətləndirilməlidir. Dünya tarixindən bəllidir ki, müharibələrin qalib tərəfləri sülh üçün müəyyən şərtlər irəli sürürlər, imtiyazlar tələb edirlər. Azərbaycan bu sahədə də bir ilkə imza atmaqla gündəmə gətirdiyi sülh təşəbbüsündə ona hər hansı bir imtiyaz verilməsini istəmədi. Xatırladaq ki, Azərbaycanın ilkin olaraq qarşı tərəfə göndərdiyi beş bənlik sülh paketi sırf ədalət prinsipinə və beynəlxalq hüquq normalarına əsaslanır.

Azərbaycan sülhyaratma prosesində əldə olunan bütün razılaşmaları alqışlayıb. O cümlədən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yayıb. "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik", - deyə sənəddə vurğulanıb.

Bununla belə, məğlub Ermənistan barəsində eyni fikirləri söyləmək mümkün deyil. İkinci Qarabağ müharibəsinin başa çatmasından sonrakı dörd ildə sülh sazişi layihəsinin tam həcmdə razılaşdırlmamasının bütün məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür. Rəsmi İrəvan sülhyaratma prosesinin indiyədək keçilən bütün mərhələlərində çağırışlara etinasız yanaşması ilə diqqət mərkəzində olub. Xatırlatmaq yerinə düşər ki, Azərbaycanın diplomatik kanallarla çatdırdığı təkliflər, təşəbbüslər rəsmi İrəvan tərəfindən aylarla cavabsız qalırdı. Sonradan isə bu təşəbbüslərə qarşlıqı etimad quruculuğunu pozmağa hesablanan absurd "düzəlişlər" edilib geri göndərilirdi.

Ermənistanın postmüharibə mərhələsində revanşizm mövqeyindən çıxış etməsi də sülh prosesinə ağır zərbə olub. Müharibədə ağır kapitulyasiyaya uğrayan bu ölkə Fransa kimi dövlətlərin təhriki ilə yeni müharibə hazırlıqları görür. Ermənistanın sülh sazişi layihəsi üzrə son iki bəndi razılaşdırması ilə bu ölkənin sürətlə silahlanma yolu tutması, Fransadan, Hindistandan silahlar alması, sərhəddə hücum məqsədilə xüsusi istehkamlar qurması, havadarları ilə hərbi əməkdaşlığı gücəndirməsi bir araya sığmır. Sual olunur: Sülh prosesinin getdiyi bir vaxtda Ermənistanın hərbi büdcəsini əhəmiyyətli dərəcədə artırması, Avropa İttifaqının sülhə xidmət etməyən sülh fondundan bu ölkəyə hərbi məqsədlər üçün vəsaitlər ayrılması hansı çirkin məqsədlərə xidmət edir? Rəsmi İrəvan həqiqət anını bütün miqyası ilə dərk edərək belə manipulyativ davranışlardan birdəfəlik əl çəkməli və öz məsuliyyətini dərk etməlidir. Bu ölkədə anlamalıdırlar ki, sülh ilk növbədə Ermənistana lazımdır.






### Ermənistanın atmalı olduğu növbəti addımlar

İndiyədək açıq qalan iki bənd üzrə razılığını ifadə etməsi heç də Ermənistanın sülhyaratma prosesində səmimi olduğu anlamında qəbul edilə bilməz. Yuxarıda sadalanan faktlar belə qənaətə gəlməyə əsas verir. Eyni zamanda, Ermənistanın atmalı olduğu növbəti addımlar var. Prezident İlham Əliyev bu günlərdə ölkəmizin ev sahibliyi etdiyi XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bu məsələyə xüsusi diqqət çəkib. "Ermənistana etimad səviyyəsi sıfra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq" deyən dövlətimizin başçısı vurğulayıb: "Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır".

Ermənistanın indiki mərhələdə atmalı olduğu addımlara Azərbaycan XİN-in bəyanatında da vurğu edilib. Sitat: "Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq".

Göründüyü kimi, Azərbaycanın sülhə sadiqliyi prinsipial səciyyə daşıyır, qarşı tərəfə verilən mesajlar konkret və aydındır. Azərbaycan qalıcı və uzunmüddətli sülh istəyir. Sülh sazişinin imzalanması üçün fundamental hüquqi zəmin olmalıdır. Ancaq Ermənistanın konstitusiyasında yer alan bəzi müddəalar özündə ölkəmizə qarşı ərazi iddialarını ehtiva edir. Konstitusiya hər hansı bir dövlətin, o cümlədən də Ermənistanın fəaliyyətlərinin əsas istinad mənbəyidir. Konstitusiya ilə bağlı ziddiyyət ortada ikən sülh sazişinin imzalanması tamam məntiqsiz yanaşma olardı.

ATƏT-in Minsk qrupu il bağlı oxşar məntiqsizlik də ortadadır. Ermənistan rəhbərliyi həmçinin bu prinsipial məsələdən də yayınmağa çalışır. Məsələn, son olaraq Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ATƏT-in Minsk qrupunun buraxılması məsələsindən danışıb. Mirzoyanın sözlərinə görə, sülh sazişinin imzalanmasından sonra Minsk qrupunun fəaliyyətinə ehtiyacın qalmadığını demək olar. "Sülh sazişinin imzalanmasından sonra deyə bilərik ki, Minsk qrupunun fəaliyyətinə ehtiyac yoxdur, biz institusional olaraq hesab edə bilərik ki, münaqişə sona çatıb", - deyə o vurğulayıb.

A.Mirzoyanın bu açıqlaması rəsmi İrəvanın sülhyaratma prosesində səmimi olmadığını növbəti dəfə təsdiqləyir. Biz indiki komanda da daxil olmaqla Ermənistan rəhbərlərinin manipulyasiyalarının, verdikləri vədlərdən qaçmalarının dəfələrlə şahidi olmuşuq. Mirzoyanın absurd açqlaması da bu qəbildəndir. Axı nə üçün rəsmi İrəvan reallıqda ölü bir qurum olan Minsk qrupuna süni nəfəs verməyə çalışır və onun de-fakto olduğu kimi, de-yure də ləğvinə səy göstərmir?

Yeri gəlmişkən, sülh sazişi layihəsinin son iki bəndinin razılaşdırması Ermənistan cəmiyyətində birmənalı qarşılanmayıb. Nə qədər təəccüblü görünsə də, iki müharibənin faciələrini yaşamış Ermənistan cəmiyyətində son razılaşma təqdir olunmur, əksinə "ölkənin sənd üzərində kapitulyasiyası" anlamında təqdim edilir. Belə görünür ki, ermənilər "Dəmir yumruq" dərsindən lazımı nəticə çıxarmayıblar və hələ də N.Paşinyanın dilə gətirdiyi "xəyali Ermənistan" xülyasındadırlar. Reallığı dərk etməmək və baş verənlərdən düzgün nəticə çıxartmamaq bir toplumun faciəsidir. Nəhayət, vaxt çatıb ki, ermənilərin ilk növbədə onların özləri üçün zərərli olan ümummilli ideyaları tarixin zibilliyinə atılsın...

***Mübariz FEYİZLİ***

# Sülhə gedən yol...

## Davamlı və ədalətli sülh beynəlxalq hüquqa əsaslanmalıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu martın 14-də işini panel iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Amerikanın Xarici Siyasəti üzrə Milli Komitənin prezidenti və baş icraçı direktoru Syuzan Eliotun moderatorluğu ilə keçirilən "Sülhə gedən yol" adlı panel iclasında əvvəlcə Ukrayna 3000 Fondunun sədri Katerina Yuşşenko Ukrayna-Rusiya müharibəsindən danışıb. Onun sözlərinə görə, bu müharibənin davam etməsi, sadəcə, bölgə üçün deyil, bütün dünya üçün təhlükədir. "Hadisələrə yalnız müəyyən prizmadan baxmaq olmaz. Biz burada, sadəcə, bir şəhərdən və ya dövlətdən danışmırıq, bütövlükdə demokratik dünyadan bəhs edirik",- deyə o vurğulayıb.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç ABŞ Prezidenti Donald Trampın Ukrayna-Rusiya müharibəsinə yanaşma tərzindən danışıb. Onun sözlərinə görə, ABŞ Prezidentinin müharibəyə qarşı çıxması və sülh istəməsi üçün müəyyən səbəblər var. "Donald Trampın insan hüquqlarından narahat olduğunu düşünürəm. O, dünyadakı çoxlu maliyyə tələb edən "bahalı" müharibələri dayandırmaq istəyir və Ukraynaya hərbi dəstəyin artıq xərc olduğunu düşünür. Ancaq sözsüz ki, bu yanaşmanın da müəyyən problemli tərəfləri var. Çünki hazırda yaranan geosiyasi vəziyyət hər kəs üçün ciddi zərbədir. Münaqişələrin həllində diplomatiya tətbiq etməli, beynəlxalq hüquqları qorumalıyıq. Düşünürəm ki, münaqişənin həlli istiqamətində böyük potensial yaratmaq mümkündür. Əsas hədəf isə yeni müharibələrin başlamasına imkan verməməkdir", - deyə sabiq Prezident bildirib.






İsrailin sabiq Baş naziri Ehud Olmert hazırda dünyanın bir çox yerində insan hüquqlarının pozulduğuna diqqət çəkərək deyib: "Bəzi təkliflər və açıqlamaların nəticələrinə baxaraq tərəddüdsüz şəkildə deyə bilərəm ki, mən fələstinlilərin Qəzzadan deportasiyasına qarşıyam. Bu, praktiki baxımdan, eyni zamanda, mənəvi cəhətdən doğru deyil. Hesab edirəm ki, İsrail adından danışan bəzi şəxslərin mövqeyi İsrailin əsas mənəvi dəyərlərini əks etdirmir. Biz Qəzzadan insanların deportasiya edilməsinə və Qəzzanın zorla dəyişdirilməsinə qarşıyıq".

İsrailin sabiq xarici işlər naziri, Baş nazirin müavini Tzipi Livni fələstinlilər və israillilər üçün daha yaxşı gələcək yaratmaq yolları axtarmağın vacibliyini vurğulayaraq bildirib: "Hazırkı vəziyyət ürəkaçan olmasa da, müəyyən qədər diplomatik uzlaşma yaratmaz lazımdır. Müzakirələr daha da dərinləşməlidir".

Monteneqronun sabiq Prezidenti Milo Cukanoviç çıxışında qeyd edib ki, Bakı Forumu və burada müzakirə olunan mövzular dünya böhranlarının, geosiyasi dəyişikliklərin mənfi təsirlərinin aradan qaldırılması üçün çıxış yolları tapmaq baxımından əla fürsətdir. "Çünki hazırda geosiyasi vəziyyət həqiqətən də şokedicidir. Geosiyasi dəyişikliklər beynəlxalq hüquqları heçə endirir. Bütün müharibələr, ən kiçik qarşıdurmalar belə dünyanın inkişafına təhdiddir. Xaosun davamlı olaraq artması xüsusilə Qərb ölkələrini daha çox narahat edir. Biz dəyərlərin sarsılmasının, siyasətin keyfiyyətinin azalmasının şahidi oluruq. Əgər insan hüquqlarının qorunmasına daha çox diqqət yetirməsək, ciddi fəsadlarla üzləşə bilərik",- deyə o qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, Baş nazirin müavini Bülənt Arınç dünyanın bir çox yerində yaranan böhran və müharibələrdən danışıb. Deyib ki, lakin beynəlxalq təşkilatlar bu halların qarşısını almaq istəmirlər. Azərbaycan və Ermənistan arasında yaşanan hadisələr bu məsələyə açıq nümunədir. Fransanın Ermənistana göstərdiyi dəstək davam etdikcə münaqişə də davam edəcək. Çünki Fransa kimi bəzi dünya dövlətləri müharibələrin qarşısını almaq istəmir, əksinə, öz çıxarlarına uyğun addım atmağa çalışırlar. Bu isə dünyanı fəlakətə sürükləyə bilər. BMT Ermənistanın 1990-cı illərdə Azərbaycan torpaqlarını işğal etməsinə, Qarabağda yaşayan mülki insanları öldürməsinə 30 il susdu. Bəzi ölkələr hələ də Xocalı soyqırımını tanımaq istəmir. İşğal dövründə münaqişə ilə bağlı yalnız Minsk qrupu yaradıldı. Ancaq bu işğala səbəb olanlar münaqişəni həll etməkdən qaçdılar. Yalnız 30 ildən sonra Azərbaycan işğal altındakı torpaqlarını öz gücü ilə azad etdi. Hazırda isə Azərbaycan sülh müqaviləsi üçün beynəlxalq təşkilatlara, dünya dövlətlərinə səslənir.

### Qlobal Bakı Forumunda panel iclasları keçirilib

B.Arınç diqqətə çatdırıb ki, bir çox dünya dövləti öz maraqlarına uyğun olmayan halları rədd edir və nəticədə BMT münaqişələrin qarşısını ala bilmir.

BMT Baş Assambleyasının 72-ci Sessiyasının sədri, Slovakiyanın sabiq xarici işlər naziri, Aİ-nin Belqrad-Priştina Dialoqu və digər Qərbi Balkan regional problemləri üzrə keçmiş xüsusi nümayəndəsi Miroslav Layçak yeni dünyada sosial medianın rolundan danışaraq qeyd edib: "Kiberhücumlardan qorunmaq üçün ən son texnologiyalardan istifadə etməliyik. Eyni zamanda, informasiyanı daha yaxşı ayırd edə bilmək bacarığımız olmalıdır, çünki sosial media artıq real bir aktora çevrilib. Əgər siz müharibədə gəlmək istəyirsinizsə, sosial mediada məğlub olmamaq barədə düşünməlisiniz".

O bildirib ki, əgər davamlı və ədalətli sülh istəyiriksə, hər şeydən əvvəl bu, beynəlxalq hüquqa əsaslanmalıdır.

ABŞ-ın Birləşmiş Krallıqdakı sabiq səfiri, WPP Plc-nin sabiq sədri Filip Lader geosiyasi vəziyyəti təhlil etməyin, dünyada baş verənləri aydın şəkildə görməyin vacibliyinə diqqət çəkib. O qeyd edib ki, Qlobal Bakı Forumunda müzakirə olunan məsələlər hər kəs üçün birmənalı mühümdür.

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

# “Yaşıl istiqraz”lar dövrü başlayır

## SOCAR-ın “yaşıl cığır” açması investorların bu sahəyə marağını stimullaşdıracaq

Dövlət Neft Şirkətinin (SOCAR) buraxdığı “yaşıl istiqraz”ların Bakı Fond Birjasında (BFB) tədavülünə başlanılıb. Yeni qiymətli kağızların tədavülə çıxarılması ilə bağlı tədbirdə iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, SOCAR-ın prezidenti Rövşən Nəcəf, Mərkəzi Bankın sədri Taleh Kazımov, eləcə də BFB, MDM, bank, sığorta və investisiya şirkətlərinin rəhbərləri və akademik dairələrin nümayəndələri iştirak ediblər.

Yeni istiqrazların dövriyyəyə buraxılması dünya miqyasında bərpaolunan enerjiyə artan tələbat və ekoloji məsələlərə həssas yanaşmanın daha da yüksəlməsi fonunda Azərbaycanın strateji hədəflərin və bu istiqamətdə atdığı addımların mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər.

### Yeni mərhələnin başlanğıcı

Qeyd edək ki, SOCAR 2016-cı ildən istiqraz bazarına daxil olub, həmin kağızlar ümumi maliyyə sferasını əhatə etməklə yerli kapital bazarlarında müsbət dinamika formalaşdırıb. Bu qiymətli kağızlar investorların uzunmüddətli inam və marağının qazanılması, eləcə də yaratdığı iqtisadi dəyər baxımından yenilik kimi əhəmiyyətlidir. Bununla yanaşı, şirkət ətraf mühitə dost münasibət göstərərək öz fəaliyyətində “yaşıl layihələrə” də xüsusi önəm verməkdıədir. SOCAR-ın strateji hədəflərindən biri bərpaolunan enerji sahəsində reallaşdırılan və nəzərdə tutulan layihələri daha da genişləndirməkdir. Bu baxımdan “yaşıl istiqrazlar”ın SOCAR-ın dayanıqlı inkişaf hədəflərinə uyğun şəkildə daxili kapital bazarlarına qazandırdığı yenilik və səmərəlilik layihəsi kimi qiymətləndirilə bilər. “Yaşıl istiqraz”ların bazara çıxarılması ekoloji cəhətdən daha dayanıqlı investisiya alətlərinin genişlənməsi baxımından strateji əhəmiyyət kəsb etməklə, yeni mərhələnin başlanğıcı deməkdir.




### Yaşıl Maliyyə Taksonomiyasının hədəfləri

Mərkəzi Bank (MB) tərəfindən hazırlanmış Dayanıqlı Maliyyə üzrə Strateji Yol Xəritəsində maliyyə sektorunda da “yaşıl artım” alətlərinə xüsusi üstünlük verilməsi nəzərdə tutulub. Yaşıl Maliyyə Taksonomiyası sənədində əsas prioritetlərdən biri şirkət və bankların “yaşıl maliyyə” investisiyalarını təşviq etməsi tövsiyə olunub. COP29 çağırışlarından meydana gələn bu prinsiplər ekoloji sahəyə fayda vermək, dayanıqlı iqtisadiyyatı inkişaf etdirmək məqsədi daşıyır. Məlumdur ki, Azərbaycan hökuməti 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz azaltmağı qarşısına məqsəd qoyub. Həmin hədəflərə çatmaqda bank sektorunun ekoloji məsuliyyəti də əsas məsələlərdən biridir. Ona görə də, dövlət şirkətləri, səhmdar cəmiyyətlər, bank və kredit təşkilatlarının “yaşıl maliyyə” alətlərinə həvəsini artırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər görülməkdədir.

Həmin alətlərdən biri “yaşıl istiqrazlar”dır. Azərbaycanın bank sistemi üçün də bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. “Yaşıl istiqrazlar” maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf muhitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir. Ekoloji və iqlim layihələrini dəstəkləmək uçun sabit gəlirli bir maliyyə aləti olan “yaşıl istiqraz” enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizədə öz səmətəsini verməkdədir. Avropa Birliyi ölkələrindən Finlandıya, İçveçrə, Estoniya, Niderland, İrlandiya, Norveç və digərləri davamlı kənd təsərrüfatı, ekosistemlərin qorunması, təmiz nəqliyyat, davamlı su idarəçiliyinə yönəlmiş layihələri bu qiymətli kağız vasitəsilə maliyyələşdirir.

Bu baxımdan SOCAR-ın “yaşıl istiqraz”ları kapital bazarlarında şirkətin strateji mövqeyini daha da möhkəmləndirməklə bərabər, SOCAR-ın ekoloji dəyərlərə sadiqliyini və dayanıqlı inkişaf prioritetlərini də özündə əks etdirir.

Şirkətin bazarda flaqman olaraq ilk yaşıl cığır açması investorların bu maliyyə alətlərinə marağını stimullaşdıracaq.

### “Yaşıl səhm” emissiyasına doğru

“Yaşıl istiqraz”ların emissiyası digər “yaşıl maliyyə” alətlərinin də buraxılışı üçün yeni mühit yaratmış olacaq. Belə ki, hazırda bir çox ölkədə “yaşıl səhm”lər də ekoloji cəhətdən təmiz texnologiyaların genişləndirilməsi və iqlim dəyişikliyinin azaldılması istiqamətində emissiya edilən səmərəli maliyyə aləti kimi mühüm yer tutur. Beynəlxalq Maliyyə Korporasiyasının hesabatında




“yaşıl səhm”lərin son 4 ildə emissiyasının 230 milyard dolları ötdüyü qeyd olunur. Hazırda Dunya Bankı “yaşıl istiqraz” və “yaşıl səhm” buraxılışında əsas maliyyə institut və emitent kimi fəallığını daha çox artırmaqdadır. Bank son 5 ildə 200 milyard dollara yaxın istiqraz emissiya edib. Həmçinin Avropa Komissiyası “yaşıl” istiqrazlar”ın emissiyasına 20 milyard avroya yaxın vəsait xərcləyib. Bütün bunları nəzərə aldıqda, Azərbaycanın beynəlxalq institutlarla, o cümlədən Dünya Bankı və Avopa Komissiyası ilə əməkdaşlığı qeyd edilən “yaşıl maliyyə” alətlərinin ölkəmizə gətirilməsi üçün əlverişli imkanlar yaradır.

Hökumətin alternativ enerji mənbələrinə maliyyə cəlb etmək və biznesi bu sahəyə həvəsləndirmək üçün təşviq vasitələrindən biri də “yaşıl kredit”lərin verilməsidir. Bu siyasət tədbirlərinin əsas məqsədi ekoloji layihələrə, bərpa olunan enerji mənbələrinə sərmayə axtaran biznes təşkilatlarına, ekoturizm sənayesinə, eləcə də təmiz kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli və asan kreditlərin verilməsini təşviq etməkdir.

*E.CƏFƏRLİ*

# BMT Baş katibindən islahatlar mesajı...

## Antonio Quterreş: Sülh, inkişaf və humanitar yardımla bağlı təkmilləşdirməyə ehtiyac var



Birləşmiş Millətlər Təşkilatının (BMT) strukturlarında islahatların aparılması məsələsi uzun müddətdir ki, dünya ölkələrinin gündəmindədir. Xüsusilə, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. Bu zərurəti BMT-nin Baş katibi Antonio Quterreş də etiraf edib. Baş katib rəhbərlik etdiyi təşkilatın modernləşdirilməsinə davam edən təkanların bir hissəsi olaraq, BMT-nin effektiv, qənaətcil və xidmət etdiyi insanlara cavabdeh olmasını təmin etmək məqsədilə islahatlara üstünlük verdiyini deyib.

**“İslahatlar təkcə daxili proseslərlə bağlı deyil”**

BMT-nin Nyu-Yorkdakı baş qərargahında jurnalistlərə məlumat verən A.Quterreş vurğulayıb ki, islahatlar təkcə daxili proseslərlə bağlı deyil, həm də sülh, inkişaf və humanitar yardımda nəzərəçarpacaq təkmilləşdirməyə nail olmaq məqsədi daşıyır. Bütün bunlar dövlət vəsaitlərinin ağıllı və şəffaf şəkildə istifadəsini təmin edir. O əlavə edib: “Bu səylər özlüyündə son deyil. Onlar həyatları bizdən asılı olan insanlara daha yaxşı xidmət etmək haqqındadır. Söhbət bütün dünyada zəhmətkeş vergi ödəyicilərindən gedir”.

BMT-nin bu il 80 illiyi tamam olur və “UN80” təşəbbüsü təşkilatın strukturlarını, prioritetlərini və XXI əsr üçün əməliyyatlarını yeniləməyi hədəfləyən Gələcək Paktı və “BMT 2.0” proqramı daxil olmaqla davamlı səylərə əsaslanır. A.Quterreş bununla bağlı deyib: “Birləşmiş Millətlər Təşkilatı kimi mürəkkəb və mühüm təşkilati sistemin məqsədlərinə səmərəli şəkildə nail olmaq üçün fəaliyyətimizin məqsədəuyğunluğunu qiymətləndirmək baxımından ciddi və müntəzəm yoxlama aparılması vacibdir. BMT-nin 80 illik yubileyində daha təcili tədbirlərə və ambisiyaya ehtiyac olduğunu dərk edərək, bütün səylərimizi genişləndirmək lazımdır”. BMT rəhbəri bildirib ki, “UN80” təşəbbüsü çərçivəsində Baş katibin müavini Qay Rayderin rəhbərlik etdiyi xüsusi işçi qrup üç əsas istiqamət üzrə təkliflər hazırlayacaq. Bunlara səmərəliliyin və təkmilləşdirmənin müəyyən edilməsi, üzv dövlətlərin mandatlarının icrasının nəzərdən keçirilməsi və daha dərin struktur dəyişiklikləri, proqramın yenidən qurulmasının strateji cəhətdən nəzərdən keçirilməsi daxildir. “Birləşmiş Millətlər Təşkilatındakı büdcələr sadəcə balansda olan rəqəmlər deyil, onlar bütün dünyada milyonlarla insanın ölüm-dirim məsələsidir”, -deyə Quterreş vurğulayıb.

Baş katib, həmçinin Baş Assambleya sədrinin rəhbərliyi altında əldə edilmiş irəliləyişlə bağlı bütün üzv dövlətlərlə yaxından və müntəzəm olaraq məsləhətləşmələr apararaq irəliyə doğru istiqamət götürmək və konkret təkliflər təqdim etməyi öhdəsinə götürüb. O əlavə edib: “Mənim məqsədim səlahiyyətlərimə aid olan sahələrdə mümkün qədər tez hərəkət etmək və üzv dövlətləri özlərindən asılı olan bir çox qərarları nəzərdən keçirməyə çağırmaqdır. Hazırda BMT-nin fəaliyyətinə ehtiyac böyükdür və məqsəd aydındır: insanlara xidmət edən və XXI əsrə uyğunlaşdırılmış daha güclü və daha effektiv Birləşmiş Millətlər Təşkilatı formalaşdırmaq”.

**Beynəlxalq güclərin inhisarında olan təşkilat**

BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma beş daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. Ümumiyyətlə, BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də, Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur.

**“Dünya beşdən böyükdür” çağırışına Azərbaycandan dəstək**

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından “Dünya beşdən böyükdür!”, - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. “Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil”, - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan meyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb.

Artıq dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur.

*Nardar BAYRAMLI*

# Gənclərə davamlı diqqət və qayğı göstərilir

## Milli vətənpərvərlik amili xarici zərərli ideologiyaların təsirinə qarşı müqaviməti artırır



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**

Gənclik hər zaman milli gücün aparıcı lokomotivi sayılır. Tarixin bütün dönəmlərində milli ruha, vətənpərvərlik hissinə, dövlətə və millətə bağlılıq kimi ali dəyərlərə malik gənclər öz ölkəsinin inkişafında əhəmiyyətli iştirakla yadda qalıblar. Milli ruhda böyüyən Azərbaycan gəncliyi də ölkəmizin strateji hədəflərinə doğru irəliləməsi prosesində fəal iştirakçı kimi yer alır, iqtisadi, siyasi və sosial həyatda mühüm rol oynayır. Azərbaycanın inkişafı texnoloji tərəqqiyə və iqtisadi resurslarla yanaşı, həm də milli dəyərlər üzərində qurulan güclü mənəvi təməllərə əsaslanır. Bu prosesdə ön sırada çıxış edən gənclər isə ölkələrinin tarixini, mədəniyyətini və ənənələrini mənimsəməlidirlər. Bu şüur onların vətəndaşlıq məsuliyyətini artırır və cəmiyyətdə birliyə, həmrəyliyə töhfə verir. Gələcək nəslin milli ruhda böyüməsi Azərbaycan cəmiyyətinin gələcək inkişafı ilə bağlı praqmatik proqnoz yaradır - paralel olaraq gənclərin ölkə daxilində və xaricdə milli dəyərləri təmsil etmələri, Azərbaycanın beynəlxalq imicinin qorunmasında və gücləndirilməsində mühüm rol oynayır. Paralel olaraq, ölkəmizdə gənclər siyasəti xüsusi bir prioritet təşkil edir.

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən Milli Məclisin üzvü Nəsib Məhəməliyev bildirib ki, ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclik formalaşıb. Millət vəkili deyib ki, Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar: “Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Eləcə də, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı qəbul olunmuş Dövlət proqramları Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Gənclər daim irəli çəkilir, mühüm dövlət postlarına təyin olunurlar, dövlət idarəçiliyində, eləcə də seçkili orqanlarda gənclərin təmsilçiliyi artır. Həmçinin müxtəlif sahələrdə uğurlar qazanan, Azərbaycanın adını yüksəldən gənclərimiz dövlət rəhbərliyi tərəfindən layiqincə dəyərləndirilirlər”.

Millət vəkili bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev daim gənclərə diqqət və qayğı göstərir, çox dəyərli tövsiyələr verdi. Azərbaycan gəncliyi bu tövsiyələri fəaliyyətlərində daim öndə tutmalıdır: “Gənclərimiz tariximizə sahib çıxmalı, milli adət-ənənələrimizə sadiq olmalıdırlar. Müstəqillik dövründə yaşamaq gənclər üçün böyük xoşbəxtlikdir. Gənclərimiz cəmiyyətin fəal üzvləridir. Ölkəmizdə Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması və onların hökumət tərəfindən dəstəklənməsi, Gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən Gənclər mərkəzlərinin və Gənclər evlərinin tikilməsi uğur və tərəqqinin bariz göstəriciləridir”.

Müasir dövrdə xarici, xüsusilə, qloballaşmanın yaratdığı ideoloji və mədəni təsirlər gənclərin milli ruhda yetişməsini çətinləşdirən amillərə çevrilib. Buna görə də gənclərin xarici təsirə boyun əyməməsi üçün milli şüurun, vətənə bağlılığın və mənəvi dəyərlərin təməlini erkən yaşlardan qoymaq vacib şərt kimi çıxış edir. Azərbaycan gəncliyi həm milli, həm də qlobal məsələlərə dair bilik və bacarıqlara sahib olmaqla yanaşı elmi və intellektual səviyyədə dünyanın digər ölkələrinin gəncləri ilə rəqabət aparmaq qabiliyyətini özündə əxz edir. Milli vətənpərvərlik amili isə xarici zərərli ideologiyaların təsirinə qarşı müqaviməti və immüniteti artırır. Millət vəkili deyib ki, gəncləri kənar təsirlərdən qorumaq üçün mühüm addımlar atılır və bu davamlı hal almalıdır. Parlament üzvü qeyd edib ki, milli ruhda böyüyən, savadlı və vətənpərvər gənclər Azərbaycanın gələcək inkişafı üçün ən vacib resursdur. Onların xarici təsirlərə müqavimət göstərə bilməsi, milli maraqları qoruyaraq dünya arenasında Azərbaycanı layiqincə təmsil etməsi milli təhsil və ailə sisteminin əsas vəzifələrindən biridir. Bu istiqamətdə atılan hər bir addım, həm ölkənin daxili sabitliyini, həm də beynəlxalq müstəvidə mövqeyini gücləndirəcəkdir: “Vətən müharibəsi zamanı Azərbaycan gəncləri, milli ruhda yetişdirilmələrinin, ölkəyə bağlılıqlarının və dövlətin gənclərə verdiyi dəstəyin nə qədər əhəmiyyətli olduğunu nümayiş etdirdilər. Azərbaycan ordusunun əsas qüvvəsini təşkil edən gənclər öz torpaqlarını azad etmək üçün böyük fədakarlıq göstərdilər. Vətən müharibəsi zamanı döyüş meydanında olan hər bir gənc, illərlə aldığı tərbiyənin, dövlətin ona göstərdiyi diqqətin və milli dəyərlərin gücü ilə irəli atıldı. Onlar düşmənə qarşı təkcə fiziki deyil, həm də mənəvi üstünlüyə sahib idilər”.

*Yeganə BAYRAMOVA*

# Atəşkəsə hazırlıq, yoxsa müharibədə yeni faza?

## Rusiya ilə Ukrayna danışıqların bir addımlığındaykən...








Son dövrlərdə Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə gedən proseslər daha da intensivləşib. Xüsusilə qeyd etmək lazımdır ki, fevralın 18-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda aparılan ABŞ-Rusiya danışıqları, o cümlədən martın 10-da Ciddə şəhərində baş tutan ABŞ-Ukrayna danışıqlarında müəyyən nailiyyətlər əldə olunub, hətta ABŞ rəsmilərinin son açıqlamaları yaxın zamanda Moskva ilə Kiyev arasında atəşkəs sazişinin imzalanması ehtimalını da artırır. Lakin buna baxmayaraq, cəbhə xəttində tam fərqli vəziyyət müşahidə olunur, demək olar ki, hər iki tərəfin ərazisində hərbi əməliyyatlar və döyüşlər daha aktiv mərhələyə qədəm qoyub. Başqa sözlə, münaqişə tərəflərinin emosiyalarının artdığını görürük. Prezident Vladimir Putinin Kurskda son durum ilə tanış olmaq üçün bölgəyə hərbi formada gəlməsi xüsusi diqqət çəkir. Bir yandan atəşkəslə bağlı açıqlamalar səsləndirilməsi, digər tərəfdən isə qızğın döyüş əməliyyatlarının getməsi ilk baxışdan paradoksal görünsə də, bunun səbəbləri maraq doğurur.

**Hər iki tərəf öz məqsədinə nail olmağa çalışır**

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, atəşkəs sazişinin imzalanmasına qədər cəbhədə intensiv döyüş əməliyyatları davam edəcək. Onun sözlərinə görə, müharibə aparan tərəflər öz məqsədlərinə nail olmağa çalışırlar. "Tarix boyu istər atəşkəs sazişi, istərsə də sülh müqaviləsi ilə bağlı danışıqlar başlamamazdan öncə istənilən dövlətin hədəfində cəbhədə daha çox irəliləmək, öz hərbi mövqelərini möhkəmləndirmək və hər hansı strateji əhəmiyyətli nöqtəni ələ keçirmək ilkin prioritet olub. Münaqişə tərəfləri - Rusiya və Ukrayna da bu mövqedən çıxış edirlər. Hazırda Rusiya Ukraynanın cənub-şərq əraziləri - Donbas, Luqansk, Xerson və Zaporojye bölgələrində daha çox ərazini nəzarətə götürmək, Ukrayna isə rus qoşunlarının irəliləməsinin qarşısını almaq və öz mövqelərini qorumaq niyyətindədir. Moskva öz istəklərinə nail olacağı təqdirdə danışıqlar masası arxasına daha güclü oturacaq və masada sadalanan dörd vilayət üzərində de-fakto nəzarətinin tanınmasını tələb edəcək".

**Atəşkəs Ukrayna üçün lazımdır**

Politoloq vurğulayıb ki, Kurskda Ukrayna ordusu çox ağır və acınacaqlı vəziyyətlə qarşılaşıb: "Rusiya Ukrayna qoşunlarını Kurskdan tam çıxarmayana qədər atəşkəsə razılıq verməyəcək. Proses hələ ki, bu cür davam edəcək. Ukraynaya gəlincə, hazırda rəsmi Kiyevin atəşkəsə ehtiyacı var. Ukraynanın Kurskda 10 minə yaxın qoşunu mühasirəyə düşüb. Həm irəliləmək, həm də geri çəkilmək baxımından ciddi problemlərlə üzləşiblər. Atəşkəs Kiyevə ona görə lazımdır ki, Kurskdakı Ukrayna ordusu tam məhv olmasın və xüsusi dəhliz vasitəsilə öz qoşunlarını bölgədən sağ-salamat çıxartsın".

**ABŞ çıxılmaz vəziyyətdə qala bilər**

A.Nərimanlı bildirib ki, Kremlin ABŞ-ın atəşkəs təklifi ilə razılaşmayacağı təqdirdə Vaşinqton Ukraynaya hərbi dəstəyi davam etdirə və Rusiyaya qarşı sanksiyaları sərtləşdirə bilər. Amma: "Rusiya nüvə ölkəsi olduğu üçün Vaşinqton Moskva ilə açıq qarşıdurmaya girməyəcək. Eyni zamanda, Ukraynanı yenidən silahlandırıb müharibəni uzatmaq ABŞ-ın hazırkı administrasiyasının strategiyasına uyğun deyil. Hazırkı hakimiyyət Ukrayna-da müharibənin tez bir zamanda sona çatmasında maraqlıdır. O ki qaldı Vaşinqtonun Rusiyaya qarşı yeni sanksiya paketlərinə, üç il ərzində istər ABŞ, istərsə də Avropa İttifaqı tərəfindən tətbiq olunan sanksiyalar Rusiyanı tam sıradan çıxara bilməyib. Bəli, Moskvanın strateji enerji resurslarına sanksiya tətbiq etməklə Rusiya iqtisadiyyatına ciddi zərbə vurmaq olar. Ancaq bunun özü də Avropanın enerji təhlükəsizliyini təhlükə altına salacaq. Həmçinin Rusiya öz neft və qazını tədarük etmək üçün alternativ bazarlar tapıb. Vaşinqton bunu çox yaxşı başa düşür".

**Rusiya atəşkəsdə maraqlı görünmür**

Hərbi ekspert Ramin Məmmədlinin fikrincə, Rusiya Ukrayna və Qərb tərəfindən bütün tələblərinin yerinə yetiriləcəyi təqdirdə atəşkəsə razı olacaq. O bildirib ki, Moskva Ukraynada daha böyük ərazəyə sahib olmaq niyyətindədir: "Ukrayna ilə bağlı səsləndirilən bütün fikirlərdə bir məqama xüsusi diqqət yetirmək lazımdır. Sözsüz ki, bu, Rusiyanın siyasi tələbləri və hərbi-strateji ambissiyaları ilə bağlıdır. Moskvanın tələbləri budur ki, Ukrayna Qərblə hərbi əməkdaşlıq etməməli, NATO-ya üzv olmamalı, Ukrayna tam tərksilah olunmalı və Ukraynanın Donbas, Luqansk, Xerson və Zaporojye vilayətləri Rusiyanın nəzarətinə verilməlidir. Bu səbəbdən Vaşinqton tərəfindən irəli sürülən atəşkəs sazişi Kreml üçün keçərli deyil. Putinin başlıca məqsədi Ukraynanı kapitulyasiyaya məruz qoymaqdır", - deyə R.Məmmədli əlavə edib: "Bildiyimiz kimi, rus ordusu Kursk vilayətinin Suca şəhəri üzərində nəzarəti bərpa edib. Kurskda işlərini bitirdikdən sonra Rusiya silahlı qüvvələri Sumi istiqamətində Ukraynanın sərhədini keçib Xarkova daxil olmağa çalışacaqlar. Onu da qeyd edib ki, artıq rus ordusu Zaporojye şəhərinə yaxınlaşırlar. Moskva Ukraynanı istədiyi sülhə məcbur etməkdə iddialıdır.

*Yunis ABDULLAYEV*

# Yeddilik Qrup Rusiyanı hədəfə almadı

## Son bəyanat nəyin göstəricisidir?

Martın 12-13 - də Kanadanın Kvebek əyalətində Yeddilik Qrupunun (G7 - Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, ABŞ, Fransa və Yaponiya) xarici işlər nazirlərinin növbəti görüşü baş tutub. Görüşün sonunda XİN rəhbərlərinin birgə bəyanatı qəbul olunub. Bəyanatda Avropada təhlükəsizlik, Rusiya-Ukrayna müharibəsinin taleyi, Yaxın Şərq, Asiya-Sakit okean və Afrika regionunda mövcud vəziyyət və digər qlobal məsələlər ilə bağlı çağırışlar yer alıb. XİN rəhbərlərinin bəyanatında Ukraynaya hərbi-siyasi dəstəyin davam etdirilməsinin zəruriliyi vurğulansa da, Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi ilə bağlı fikirlər səsləndirilməyib. XİN rəhbərləri yalnız Moskvanı 30 günlük atəşkəsə razı olmağa çağırıb. Bəzi ekspertlərin fikrincə, bu, ümumilikdə, Qərbin Rusiyaya münasibət istiqamətlərini dəyişmək niyyətində olmasının göstəricisidir.

Qeyd edək ki, son zamanlar Rusiya-Ukrayna münaqişəsi üzrə mühüm proseslər baş verir - ABŞ ilə Rusiya və ABŞ ilə Ukrayna arasında təmasların intensivləşməsi, xüsusilə Ər-Riyad və Ciddədə aparılan danışıqlarda münaqişənin nizamlanması ilə bağlı müəyyən fikir mübadilələri müharibənin sona çatması üçün ümidləri artırıb. Bununla belə təmas xəttində genişmiqyaslı aktiv döyüş əməliyyatlarının müşahidə olunması, Kremlin atəşkəs təklifinə birmənalı yanaşmaması prosesin necə sona çatacağı barədə qeyri-müəyyənlik yaradıb. Ekspertlər hesab edirlər ki, ABŞ-ın, eləcə də Avropa ölkələrinin Rusiyaya münasibətində dəyişiklik Moskvanın addımlarından asılı olacaq.







### Əsas rol ABŞ-a məxsusdur

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Avropa ölkələri hər zaman ABŞ-ın mövqeyi ilə razılaşmaq məcburiyyətində olublar. "Fikrimcə G7-də dominant rol ABŞ-a məxsusdur. Düzdür, bu günə qədər, Yeddilik Qrupun kollektiv təşkilat olması və qərarlarını konsensus şəklində qəbul etməsi ilə bağlı görüntü yaradılsa da, digər altı ölkənin də rəyinin nəzərə alındığı vurğulansa da, qlobal proseslər göstərir ki, ABŞ-ın təşkilatdakı rolu müstəsnadır. İndiyə qədər verilən bütün qərarlar Vaşinqtonun mövqeyinə uyğun qəbul edilib. Son bəyanatda Rusiyaya qarşı fikirlərin qeyd edilməməsi demokratların hakimiyyətdə olmamasından qaynaqlanır", - deyə İ.Vəlizadə bildirib. Vurğulayıb ki, ABŞ-ın hazırkı hakimiyyəti Rusiya ilə münasibətləri bərpa etmək istəyir: "Ağ Ev və Kreml Ukraynada müharibəni sona çatdırmaq üçün qarşılıqlı təmasları intensivləşdirib, artıq hər iki tərəf bu məsələdə ortaq məxrəcə gəliblər və iktərəfli dialoqu genişləndirmək niyyətindədirlər".

### G7-nin avropalı üzvləri də mövqeyini dəyişir

Politoloqun sözlərinə görə, Avropa İttifaqı və Avropanın aparıcı ölkələri Rusiya-Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesindən kənarda qalmaq istəmir: "Onlar da danışıqlar masası arxasında oturmaq istəyirlər. Ancaq bunun baş tutub-tutmayacağı ABŞ və Rusiyanın qərarından asılı olacaq. Bunu çox yaxşı başa düşdükləri üçün bu və ya digər şəkildə Rusiyaya qarşı mülayim münasibət sərgiləməyə çalışırlar. Hesab edirəm ki, növbəti aylarda Aİ-nin və Avropanın güc mərkəzlərinin Rusiyaya münasibətlərində müəyyən başqa dəyişikliklərin də şahidi ola bilərik. Münasib şəraitdən istifadə edib özlərini danışıqlar prosesinə qoşmağa çalışacaqlar".

*Yunis ABDULLAYEV*

# Saxta səadətin cəriməsi

## Gi de Mopassanın "Boyunbağı" novellası haqqında

Novella janrıyla bağlı məndə ilk təsəvvürü bu unudulmaz əsər yaradıb. Mopassanın Bakıda 1980-ci ildə çapdan çıxmış qırmızı üzlü novellalar toplusundakı hekayələri oxuduqca kitaba salınmış qəribə yazıların niyə hekayə, povest yox, məhz novella adlandırıldığını uşaq ağlımla yavaş-yavaş anlamağa başladım. Yadımdadır, o illərdə "Boyunbağı" novellası əsasında bir televiziya tamaşası da çəkilmişdi, bilmirəm o tamaşa arxivlərdə saxlanırmı. Tapıb üzə çıxaran olsaydı, o dövrü xatırlayan adamların yaddaşı təzələnər, hər böyük müəllifin, dünyanı bəzəyən hər böyük kitabın dilimizə gəlişini bayram kimi qarşıladığımız zamanın nostaljisi ruhumuzu oxşayardı.

Mopassan dünya ədəbiyyatında novella yazmağın ən böyük ustasıdır. Əlbəttə, ondan əvvəl də, ondan sonra da bu janrın parlaq örnəkləri yaradılıb, ancaq heç kəs xırda janrı Mopassanın qaldırdığı hörmət-izzət mərtəbəsinə çatdıra bilməyib. Bu məsələdə onu ancaq özündən on yaş kiçik, ondan vur-tut bircə il çox yaşamış Çexovla yanaşı qoymaq olar. Mopassan novellanın rütbəsini haracan qaldırmışdısa, Çexov da hekayənin rütbəsini ora qədər, bəlkə ondan da yarım rütbə yuxarı qaldırmışdı.

***

Gi de Mopassanın yaradıcılığı klassik dövrdən modern çağa atılmış körpü, realizmdən, naturalizmdən simvolizmə, impressionizmə, başqa sözlə, on doqquzuncu əsr nəsrindən iyirminci yüzillik prozasına, klassisizmdən modernizmə keçiddir. Üstəlik, Mopassan təkcə özündən sonrakı söz sənətinə yox, təsviri incəsənət sahəsində də yeni cərəyanların yaranmasına təsir göstərib. İlk mətbu əsərini (bundan əvvəl haqqında danışdığımız "Gonbul" novellasını) ustadı Floberin məsləhətiylə otuz yaşında üzə çıxaran yazıçı qısa müddətdə dövrünün ən şöhrətli, ən varlı qələm adamına çevrilmiş, onun coşqun təbinin dalğaları bütün Avropanı vurmuşdu. Özü deyirdi ki, mən ədəbiyyat aləminə meteor kimi düşmüşəm, şimşək kimi də çaxıb sönəsiyəm.

Məsələ burasındadır ki, onun yanmağıyla sönməyi arasındakı zaman məsafəsi aşağı-yuxarı on il çəkmişdi, o, qələminin yaratdığı möcüzələri vur-tut bu onca ildə göstərmişdi, üç yüz novellanı, altı romanı bu müddət içində yazmışdı. Mopassanın həmin müddətdə kef-damaqdan, ədəbi məclislərdən, təbiət qoynuna müntəzəm ziyarətlərdən, qadın dünyasına zəfər yürüşlərindən qalmadığını nəzərə alsaq, belə məhsuldarlıq ağlasığmaz görünür. Ona dostu Zolyanın yaratdığı Ruqon-Makkar nəslinin hər iki kökdən su içmiş tipik nümayəndəsi kimi də baxmaq olar: bir yanda güclü yaşamaq eşqi, o biri yanda irsi əsəb xəstəliyi (özündən kiçik həkim qardaşı da ruhi xəstəxanada ölmüşdü), bir yanda tükənməz həyat enerjisi, o biri yanda iyirmi beş yaşında yoluxduğu zöhrəvi xəstəlik, bir yanda daim nikbinlik gətirən yaradıcılıq coşqusu, o biri yanda həyatın etibarına inamsızlıqdan doğan bədbinlik qaramatı. Mopassanın yüksəlişi də, çöküşü də bu iki qütbün arasında baş vermişdi.

Ən dəhşətlisi budur ki, o, dünya nəsrini bir addım irəli aparan əsərlərini də bu aralıqda, həyatla ölümün şiddətli mübarizəsi şəraitində, o savaşın xaraba qoyduğu bir vücudun içində koması başına uça-uça yaratmışdı. Eynən Çexov da axır illərini belə bir mübarizədə keçirmişdi, həmin illərdə qələmə aldığı əsərləri vərəm qızdırmasının çağırdığı kabusların arasında yazmışdı. Görün bundan ötrü insana necə qüdrətli enerji, necə möhkəm iradə, necə böyük yaradıcı güc - allah gücü lazımdır.

***

Məmur ailəsində dünyaya gəlmiş gözəl Matilda ərlik yaşına çatanda cehizi olmadığından yüksək cəmiyyətə mənsub varlı balalarından təklif alacağına da heç bir ümid bəsləməyib, taleyinin hökmüylə maarif nazirliyində işləyən kiçik məmura ərə getməyə razılıq verib. Heç bir cəhətinə görə əsilzadə xanımlardan geri qalmasa da, bir çoxundan hətta üstün olsa da, Matilda onlar kimi yaşamır, kübar xanımlar kimi bahalı paltar geyinib cəmiyyət içinə çıxa bilmir. Bu səbəbdən həyatından, taleyindən narazıdır:

"Hiss eləyirdi ki, Allah onu naz-nemət içində üzmək, zər-zibaya bürünmək üçün yaradıb, amma heç nəyi olmadığından əzab çəkirdi. Bomboş evinin çılpaq divarlarına, sürtülmüş nimdaş stullarına, əzilib didiklənmiş pəncərə pərdələrinə görə utanırdı. Bəlkə də başqa kasıb qadınlar onun evindəki yoxsulluğun fərqinə varmazdılar, amma o özü bunları gördükcə içəridən qovrulub hiddətlənirdi...

Şərq parçalarıyla bəzənmiş, hündür qədim bürünc qəndillərin işığına qərq olmuş sakit qonaq otaqları, buxarının istisindən xumarlanıb mürgüləyən yumşaq səndəlli, ipək corablı əzəmətli nökərlər tez-tez onun yuxusuna girirdi. O, yuxuda qədim qalın pərdələrlə örtünmüş geniş salonlar görürdü..."

Matildanın məmur əri Luazel qismətinə qane olan, ayağını yorğanına görə uzadan adamdır. Axşam işdən qayıdanda qarşısına qoyulan isti kələm şorbası da onu xoşbəxt eləyə bilir. Matilda üçünsə bu, çox azdır, o, bahalı əyin-baş, qiymətli daş-qaş, parlaq şan-şöhrət arzusundadır. İstəyir ki, hamının xoşuna gəlsin, kişilər gözünü ondan çəkməsin, kübar xanımlar onu görəndə paxıllıqdan yanıb-yaxılsın. Monastırda birgə təlim-tərbiyə aldığı varlı rəfiqəsinə hər dəfə qonaq gedəndə Matildanın halı xarab olur, məyusluqdan gün axşamacan ağlayır, hər dəfəsində özünə söz verir ki, bacılığının evinə bir də ayaq basmayacaq.

***

Bir axşam əri işdən sürprizlə qayıdır: maarif naziri onları bazar ertəsi nazirlikdə təşkil olunacaq məclisə dəvət eləyir. Əlbəttə, bu tədbirə düşmək istəyən çox olub, o səbəbdən cənab Luazel dəvətnaməni çətinliklə əldə eləyib, nəzərə almaq lazımdır ki, kiçik məmurları belə yerlərə nadir halda çağırırlar. Bəs necə, bu, hər saat tapılmayan fürsətdir, Matilda o məclisdə böyük-böyük adamları yaxından görəcək!

Xanım Luazel isə sevinmək əvəzinə yasa batır, çünki onun bu məclisə layiq paltarı yoxdur. Əri təklif eləyir ki, Matilda teatra gedəndə geydiyi donu geyinsin, o donla belə yüksək məclisə getmək olar. Matildanı isə hikkəsindən ağlamaq tutur, ərinin ehtiyatla irəli sürdüyü təklifə anlayışla yanaşmaqdansa qadın özünü zərərçəkmiş kimi aparır, balda iştirakdan boyun qaçırmaq istəyir. Onda cənab Luazel dörd yüz franklıq saxlancını özünə yeni don tikdirsin deyə Matildaya verir - bu pulu o, yayda dostlarıyla ova çıxmaq niyyətiylə tüfəng almaq üçün yığmışdı. Matildanın hesabına görə, təzə paltarın da başa gəlməsi elə bu qədər tutar.

Beləliklə, xanım Luazelin işi düzəlir, ancaq məclisin vaxtı yaxınlaşdıqca onu yenə qəm-qüssə basır. Matildanın təzə dona yaraşıq verəsi, paltarın dəbdəbəsinə uyğun nə bir üzüyü, bilərziyi, nə muncuğu, daş-qaşı var, bunlarsız da paltar nə qədər gözəl olur olsun, çılpaq, təmtəraqsız görünür. Bər-bəzəkli, sözbaz, qeybətcil kübar xanımların arasına dilənçi görkəmində çıxmaq olmaz. Onda əri ona məsləhət görür ki, varlı rəfiqəsi xanım Forestyenin üstünə borca gedib onun zinət əşyalarından birini əmanət götürsün. Söz Matildanın ağlına batır, bacılığının zəngin kolleksiyasından brilyant boyunbağını seçib böyük həvəslə, həyəcanla yüksək məclisə hazırlaşır.

***

"Nəhayət, məclisin vaxtı çatdı. Bal günü hamının gözü xanım Luazeldə qaldı. O hamıdan gözəl idi, zərif, qəşəng, şən görünən bu xanım sevincindən məst olmuşdu. Kişilər ondan gözünü çəkmir, onunla maraqlanır, onun kim olduğunu soruşur, çalışırdılar onunla tanış olsunlar. Xüsusi tapşırıq şöbəsinin məmurları yalnız onunla vals oynamaq istəyirdilər. Hətta nazir özü də onunla maraqlandı.

O, coşqun bir həvəslə, ehtirasla, sevincindən başı gicəllənə-gicəllənə, hər şeyi unudub öz gözəlliyinin təntənəsindən həzz ala-ala, qələbəsindən məst olmuş halda, kişilərin təzimindən, pərəstişindən, onların qəlbində oyatdığı ehtiraslı arzulardan ruhlanmaqla, qadın qəlbini müdam riqqətə gətirən tam qələbə duyğusuyla xoşbəxtlik dumanına bürünmüş kimi rəqs eləyirdi".

Gecə saat dörddə məclis dağılır, onlar kefi kök, damağı çağ evə qayıdırlar. Evdə məlum olur ki, Matilda xanım Forestyedən əmanət aldığı brilyant boyunbağını itirib. Bu, yoxsul məmur ailəsinə kəsilmiş ölüm hökmüdür!

Gəldikləri yolu geri qayıdırlar, hər yeri ələk-vələk eləyirlər, faytonçunu sorğu-suala çəkirlər, boyunbağını gördən deyən tapılmır. Cənab Luazel polis idarəsinə gedir, qəzetdə elan verir, fayton dayanacağını eninə-uzununa yoxlayır, gümanı gələn hər yerdə eşələnir, nəhayət, səhər saat yeddidə əliboş evə qayıdır. Matilda ərinin diktəsiylə rəfiqəsinə məktub yazıb ondan bir bəhanəylə möhlət istəyir.



*F.Uğurlu*

ardı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# ŞƏNBƏ ÜÇÜN NƏZM








## Fərqanə Səfərli

**DÜNYANIN DÜZ VAXTINA**

Mən elə bildim böyüyüb
Yetir insan öz baxtına.
Demə, əyri yol gedirmiş
Dünyanın lap düz vaxtına.

Yəhər yüklü ağrıları,
Dartır köhlən sağrıları,
Qaçır alma oğruları
Həvvanın ta qız vaxtına.

Yorğun idi dar ağacı,
Ölüm də baxdı qıyğacı,
Laylaların ən qısqancı
Dönük çıxdı saz vaxtına.

Kəpənək doğuşdan bəri,
Bir ipəkdi, bir də dəri,
Qışın oğlan həndəvəri
Çəkdi yolun yaz vaxtına.

**QALANLARIN QİBLƏSİ**

Tərs hiylənin yaddaşına
Düz yol çəkdim körpülərdən.
Həqiqətlər gün saymadı
Təqvimdəki son qəmərdən.

Asta-asta yel oynadı,
Dəyirmanı dərd götürdü.
Buğda sözün geri çəkdi,
Acanlar şansın itirdi.

Güzar ustalaşıb keçdi
Xəyalların kəm ucundan.
Eşq birtəhər yolun seçdi
Tünd badənin dəm ucundan.

Günah quduzlaşıb qaçdı
Xəyanətin kəndirindən.
Yol-yolağa "çiçək tökdü"
Yaltaqlığın ənbərindən.

Sonra... kaman zilə çıxdı -
"Do", "re", "mi"nin cərgəsindən.
Ölənlərə hava tutdu
Qalanların qibləsindən...

**SƏNSİZLİYİN SOL TƏRƏFİ**

Sol yaxamda sancağım
Paslanıb sənsizlikdən.
Yuxuya vermə məni,
Yuxuma da girmirsən.

Bəsləyib göyərçini
Pəncərəmə qoymuşam.
Sülhün qara üzüylə
Didərgin məktubları
Yem qabına salmışam.

Qisas anın gözlədi
Ümidli ayaqlarım.
Bu yolda iz tanıdım:
Gördüm şeytan gor qazır,
Mələklər tapdalayır.

Hönkürtümü eşitmir
Dekabrın gəlişi.
İlin canı burnunda:
Dönən çoxdan dönərdi,
Vidalaşıb qəlb işin.

Nəfəsində günahın,
Çiynində də andlarım.
Yorulanda de bilim:
Belə necə uçursan,
Daşdandı qanadların?

**GƏLİRƏM**

Yerin pis əməlindən
Üşüyürəm, İlahi -
Göydə bir ocaq qala,
Qızınmağa gəlirəm.

Çiynimdəki hörüklər
Mələklərə yol açıb -
Dəftərimi bilməkçün
Arınmağa gəlirəm.

Qaranlıq peşimandı,
Qardaş bilib işığı -
Kəfənin iç üzünə
Sarınmağa gəlirəm.

Biz uçmaq vərdişini
Doğuluşdan itirdik -
Bir kəpənək belində
Barınmağa gəlirəm.

**YENƏ**

Yenə durna qatarı,
Yenə sazaq bir hava.
Yenə könlüm yön alır
O isti uzaqlara...
Yenə gün batımını gözləyir qamış səsi,
Bir də həsrət qoxuyan
Kədərimin naləsi...
Yenə günəş gedəcək
Öz doğma ocağına.
Yenə düşər qaranlıq
Yerin kor bucağına.
Yenə...
Yenə burda mən,
Bir də azğın ümidlər -
Həm məni, həm özünü
Xəyallara kilidlər.

**BEŞ NÖMRƏLİ PALATA**

Beş nömrəli palata:
Burda bir xəstə yatıb -
Canı möhkəm yansa da,
Ruhu rahatlıq tapıb...
Onun can otağında
Bir pəncərə, dörd divar
Və
Gözləriylə ağ divara yazdığı
Qara sualları var...
"Ciyərim nə rəngdədi,
Qəlbimdə qan hardadı?
Beynimə gedən yolun
Qapıları burdadı?!"
Deyib sıxdı köksünü,
Həkimin gözlərində
Axtarırdı özünü...
...Gecə çox ağır keçdi,
Basıldı qara düymə.
Dərdindən o, söylədi
Növbədəki həkimə...
Səhər beş dəqiqəlikdə
Verildi bu məlumat:
"Beşinci palatanı
Evə yazın tam rahat..."
Diaqnoz:

Ruh adamı,
Xəstəliyi sevgidi -
Onun yeri bura yox,
Sevdiyinin evidi.

**SEVGİ VALSI**

Gəl, rəqs edək səninlə,
Mələklər savab yazsın
Çiynimizdə ritmlə...
Gəl, üzümüz ölümə
Dözək hər bir zülmə.
Zaman şərə qarışsın,
Gecənin işıqları
Gözümüzdən alışsın...
Tərləsin əllərimiz
Valsın şən notlarında.
Büdrəsin ayağımız
Zər qırçınlı donumda.
Cismim ağırlıq etsin,
Sol qoluna əksimi -
Oynayaq sənin ilə
Ölümsüzlük rəqsini.

**Yorulmuşuq neçəmiz...**

Görən, hardan baxasan
Adəmin həyatına?
Elə hey səmt yozuruq,
Yerin yeddi qatına.

Cəhənnəm mələkləri,
Bezibdi əlimizdən.
Torpağın toxum payı
Kök atıb dərdimizdən.

Bu yer qoşa budaqdı
Birindən bar almışıq.
Çoxu ürəyə düşüb,
Özümüz tək qalmışıq.

Hərdən sınaq tapmışıq,
Göylərin cığırında.
Dəhşət görüb azmışıq
Dünyanın axırında.

Şirin yuxu qaçırmaq,
Gözlərə tələ deyil.
Bir kəpənək uçurmaq,
"Təkamül" hələ deyil.

Seyrələn buludlara
Çətir tutmaq peşəmiz.
Günah adi günahdı
Yorulmuşuq neçəmiz.

Yaşamaq asan işdi,
Ölmək çətinə dönüb.
Anası bəşər olan
Övlad yetimə dönüb.

**CÜT TƏKLİK**

Sənlə mən tək rəqəm,
Cütlüyümüz yox -
Sən elə təkliksən,
Mən də sənintək.
İkimiz bir bizi yaradırıq tək...
Cismimiz ikidi,
Qəlbimiz iki -
Tale bölünəndi iki- ikiyə,
Cavab qismətdədi:
Yenə sevgi tək...

**QƏFİL GƏLƏN QAFİL**

Qəfil dedik taleyin daş-kəsəkli yoluna -
Qəfil yıxar,
Qəfil əzər,
Qəfil dizi qanadar.
Qəfil yolda it ulayar,
Cırtdanımız div tapar...
Çağrılmamış qonaq kimi
Oturub süfrə başında
Bir tikə çörək kəsmək
Qəfilliyə yaraşmır...
Qəfil gələn qasırğadı,
Qəfil gələn səbirdi.
Qəfil gələn aqil deyil,
Qəfil gələn qafildi...
Bir ağıllı fikirləşər,
Qafil vurub çay keçər -
Suda batmaz,
Odda yanmaz:
Qəfil yerdə özünə
Bir nəfərlik yer seçər.



## Belarus millisinin heyəti açıqlanıb

Belarus yığmasının Tacikistan və Azərbaycan milli komandalarına qarşı keçirəcəyi yoldaşlıq görüşləri üçün heyəti açıqlanıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, baş məşqçi Karlos Alos heyətə 24 futbolçu cəlb edib.

Qapıçılar: Pavel Pavlyuçenko ("Vitebsk"), Fyodor Lapouxov (MOİK, Bolqarıstan), Maksim Belov ("Neman");

Müdafiəçilər: Sergey Politeviç ("Torpedo-BelAZ"), Kirill Peçenin ("Krılya Sovetov", Rusiya), Yuri Kovalev ("Baltika", Rusiya), Pavel Zabelin ("Sokol", Rusiya), Aleksey Qavriloviç, Vadim Piqas (hər ikisi "Dinamo-Minsk), Yeqor Parxomenko ("Neman"), Dmitri Prişela ("Rotor", Rusiya), Maksim Kasarab ("Dinamo-Brest");

Yarımmüdafiəçilər: Maks Ebonq ("Astana", Qazaxıstan), Yevgeni Yablonski ("Asteras", Yunanıstan), Valeri Qromko ("Kayrat", Qazaxıstan), Valeri Boçerov ("Ufa", Rusiya), Artyom Kontsevoy ("Rodina", Rusiya), Pavel Sedko ("Torpedo-BelAZ"), Nikita Demçenko ("Dinamo-Minsk"), Kirill Zinoviç ("Dinamo" Mahaçqala, Rusiya);

Hücumçular: Vitali Lisakoviç ("Baltika", Rusiya), German Barkovski ("Puşa", Polşa), Trofim Melniçenko ("Porto B", Portuqaliya), Artyom Şumanski (MOİK, Rusiya).

Qeyd edək ki, martın 25-də "Bank Respublika Arena"da keçiriləcək Azərbaycan - Belarus oyunu saat 21:45-də başlayacaq.

## Roberto Mançini əsas namizəddir



İtaliyanın "Yuventus" klubunun yeni baş məşqçisi Roberto Mançini ola bilər.

AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, 60 yaşlı mütəxəssis Turin təmsilçisini çalışdırmağa əsas namizəddir. Klub rəhbərliyi hazırkı baş məşqçi Tiaqo Mottanın nəticələrindən razı deyil.

Komanda A Seriyasında 28 turdan sonra 52 xalla turnir cədvəlinin 4-cü pilləsində qərarlaşıb.

Qeyd edək ki, Roberto Mançini son olaraq Səudiyyə Ərəbistanı millisinin baş məşqçisi olub. O, ötən ilin oktyabr ayında postundan ayrılıb.

## "Çelsi" 17 yaşlı futbolçunu 50 milyon avroya transfer edib



"Çelsi" heyətini yeni futbolçu ilə gücləndirib.

AZƏRTAC xəbər verir ki, London təmsilçisi Portuqaliyanın "Sportinq" komandasından Jovani Kendanı transfer edib. Bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.

İngiltərə klubu 17 yaşlı müdafiəçi üçün Lissabon təmsilçisinə 50 milyon avro ödəyəcək.

## Gürcüstana gedəcək cüdoçular bəlli olub




Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçiriləcək "Böyük Dəbilqə" turnirində iştirak edəcək Azərbaycan cüdoçuları bəlli olub. Cüdo Federasiyasından AZƏRTAC-a bildirilib ki, ölkəmiz yarışda ümumilikdə 8 çəki dərəsində 12 cüdoçu ilə (8 kişi, 4 qadın) təmsil olunacaq.

Kişilərin mübarizəsində Hüseyn Allahyarov, Murad Muradlı (hər ikisi 60 kiloqram), Rəşad Yelkiyev, Nazir Talıbov (hər ikisi 66 kiloqram), Rüfət Şövlətov, Qədir Hüseynov (hər ikisi 73 kiloqram), Məhərrəm İmamverdiyev (81 kiloqram), Elmar Qasımov (100 kiloqram), qadınlarda isə Aydan Vəliyeva (52 kiloqram), Fidan Əlizadə (57 kiloqram), Südabə Ağayeva, Günel Həsənli (hər ikisi 70 kiloqram) qüvvəsini sınayacaq.

Cüdoçulara yarışda böyüklərdən ibarət yığmanın böyük məşqçisi Robert Kravçik, qadınlardan ibarət millinin böyük məşqçisi Saşa Herkenrat-Vimar rəhbərlik edəcək.

Turnirin ədalət təmsilçiləri arasında Azərbaycan Cüdo Federasiyasının hakimlər heyətinin üzvü, "A" kateqoriyalı beynəlxalq dərəcəli hakim Nazim Umbayev də yer alacaq.

Qeyd edək ki, martın 21-23-də təşkil olunacaq "Böyük Dəbilqə"də 53 ölkədən 417 idmançı (237 kişi, 180 qadın) iştirak edəcək.

## "Fənərbağça" - "Qalatasaray" oyununun vaxtı dəqiqləşib



Türkiyə Kubokunun 1/4 final mərhələsində "Fənərbağça" və "Qalatasaray" arasında keçiriləcək oyunun tarixi dəqiqləşib.

AZƏRTAC xəbər verir ki, İstanbul derbisi aprelin 2-də "Şükrü Saracoğlu" stadionunda reallaşacaq. Matç Bakı vaxtı ilə saat 21:45-də başlayacaq.

Cütün qalibi adını yarımfinala yazdıracaq.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4890
Sifariş: 560
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova